HƏYAT ŞƏMİ

# İSTANBUL SAATI İLƏ

qanun nəşriyyatı

**Həyat Şəmi. İstanbul saatı ilə**
Bakı, Qanun Nəşriyyatı, 2025, 192 səh.

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 21.02.2025

| | |
|---|---|
| Redaktor: | Qulu Ağsəs |
| Korrektor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Gülnar Məmmədkərimli |
| Qapaq dizaynı: | Kənan Eynullayev |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0681

© Həyat Şəmi, 2025
© Qanun Nəşriyyatı, 2025

*Kitabdakı şeirlərin mərkəzində insan, onun yaradanı və dünyanı dərk etməsi məsələsi durur. Mövcudluq, həyatın mənası, ədalətsizlik, müharibə, ayrılıq, həmçinin eşq, sevgi, iç dünyasına yolçuluq kimi düşüncələr fəlsəfi-poetik dillə ifadə olunur.*

*Kitab boyu müəllif poetik düşüncələrinin Füzuli–Bakı–İstanbul dövrlərinin təzahürünü yaşayır.*

*Oxucular bu topluda empatiya və həssaslıq duyğusunun poetik əksini görəcəklər.*

## İSTANBUL SAATI İLƏ

Eyni işləməz
gedənlə qalanın saatı.
Getdim,
bir saat geri çəkdim həyatı...

## SƏNİ İLK GÖRDÜYÜM YER

Səni ilk gördüyüm bir Yer vardı –
öz oxu ətrafında fırlanan...
Yaydan çıxan oxunu
indi ürəyimdə gəzdirirəm...

Səni ilk gördüyüm bir yer vardı,
işığı işıq deyildi ki, nur idi.
İndi o nuru gecə-gündüz
balıq gözlərimdə üzdürürəm.

Səni ilk gördüyüm bir səs vardı –
heç kimdə tapammıram...
O səsin gözündən keçirib
qulaqlarıma sırğa asdım busəni.

Səni ilk gördüyüm bir din vardı –
İmanı sən,
Peyğəmbəri sən…

Səni ilk gördüyüm bir gün vardı –
Gün çox dar idi, çox dar....
Darıxdım.

## AZADLIQ

Dan yeri sökülürdü əllərinlə,
Səni əllərindən tanıdım –
barmaqlarından qan tökülürdü...
Səni güllərindən tanıdım:
güllərin güllələnmişdi.
Səni tarlandan tanıdım:
fidan-fidan əkilmiş şəhid tərlanlarından.

Səni eyvanlardan tanıdım –
bayraqlar asılmış
titrək barmaqlıqlı eyvanlarından.
Səni ağappaq rəngindən tanıdım,
göyərçin-göyərçin
boş qalan qəfəsindən tanıdım,
bir də qanadının səsindən.

Səni dilimə düşən odundan tanıdım,
70 il çəkmədiyimiz adından...
Səni nəğməndən tanıdım –
öz dilimdəki nəğməndən,
hər şeyə rəğmən, tanıdım səni...

Səni gözündən tanıdım:
qartal baxışından,
dəliqanlı halından,
geniş alnından,

bir zamanlar səni deyən
dolu və odlu meydanından.
Səni özümdən tanıdım –
təkrar-təkrar yaşamaq
istədiyim gəncliyimdən –
özümdən...

Səni şəhidlər gətirdi,
anaların örpəyi –
yüz ildir ürəyimdə gəzdirdiyim,
dodaqlarımın and yeri
üçrəngli Bayrağım gətirdi.
Gətirdi
və mən yaxşı ki,
tanıdım səni, Azadlıq!

## SALAM, ƏSGƏR!

Gün cəbhədən doğdu bu gün, qanadlı
Bir müjdə gətirdi çaparaq atlı.
Səmanın bağrını odun qanatdı,
Dan yeri söküldü sənlə bu səhər,
Salam, əsgər!

Şuşanın əlini tut, buraxma ha!
Özünü qayadan atar Xuraman...
Yarın "bir dur" desə, ona baxma ha!
O da göz yaşını tutar birtəhər,
Salam, əsgər!

Xankəndi xan kimi durub, seyrində,
Başı ucadadır, dərdi dərində...
Mən ola bilmirəm sənin yerində,
Sən də bilmirsən ki, nə çəkir qədər...
Salam, əsgər!

Əsgəran gəl deyir – gəl, əsgərim, gəl,
Məni dardan qurtar, Allah kərim, gəl,
Düşmənin nəfəsi bizə ölüm, gəl!
Gör nələr görmüşük 30 il, nələr,
Salam, əsgər!

Candan usanıbdır Füzuli xəstə,
Nəfəsi get-gəlli, səsi ahəstə.
Qaldır bayrağımı Ərgünəş üstə,
Göz yaşıyla islat, sonra günə sər,
Salam, əsgər!

Qalmasın heç yerdə əsir, girov dağ,
Ayağın düşübsə hürr olar torpaq,
Baş üstə yer verdi sənə Murovdağ,
Onun sinəsindən gül dərdini dər,
Salam, əsgər!

Ağdərəyə enən dumanı əylə,
Quzeylər yaralı, qəmli güneylər,
Tanrı yuxumuzu bu gün çin eylər,
Sən tarix yazırsan qazdıqca səngər,
Salam, əsgər!

Qaməti əyilmiş qoca Xocalı,
28 ildir əsir qocaldı...
Qəddini qaldırdı, göyə ucaldı.
Sənin əlindədir bu gün – Göy və Yer,
Salam, əsgər!

Ağdamın dam üstə qalmayıb damı,
Seyr etdikcə dəli edir adamı...
Bu gün Xocavənddə düşür axşamı,
Düşür gözlərimdən qaranlıq-kədər,
Salam, əsgər!

Cəbrayıl, Zəngilan, Qubadlı adlı,
O torpaq gözləyir səni inadla
Qır düşməni, qov əlindəki odla,
Ey Odlar Yurdunun böyütdüyü ər,
Salam, əsgər!

Laçınsız Laçına oynamamışam,
Dəhlizə bir yol aç əllərində şam,
Mən sənin arxanda möhkəm durmuşam,
Yoxsa ki, canımdan neçə can gedər,
Salam, əsgər!

Daha Kəlbəcərin qalmayıb tabı,
Qapılar açılsın, sevinsin Babım...
Gözləyir yolunu yurd-yuvam, obam,
Lalələr çıxıbdır, gəlirmi bahar?
Salam, əsgər!

Səndədir gələcək, bu gün, dünən, bil!
Atəşlər açdıqca dərdi sönən bil.
Torpağı anan bil, nazlı sonan bil,
Çalınsın cəngilər, sən də çal zəfər!
Salam, əsgər!

Qarabağ – bağrımın qara ləkəsi,
Vətənin ən gözəl, dadlı tikəsi...
Doydur həsrətlini, doydur hər kəsi,
Qoy, Vətən desin ki, sənsən xilaskar,
Salam, əsgər!

## ŞUŞA

İçində hayqırtın, səssiz qalmışdın,
Həsrətə sarılıb, bizsiz qalmışdın,
Əsir yaşayırdın, susuz qalmışdın,
Mən əsgər andımı içdim səninçün.

Sən azad olmalı, hürr olmalıydın
Bir gecə içində sirr olmalıydın,
Qara sevdamıza yar olmalıydın,
Yar bağrım başını, açdım səninçün.

Sıldırım qayandan od ələdilər,
Qoynunu tənimə yurd elədilər.
Ayağın altına cənnət dedilər,
Mən ayağı yalın qaçdım səninçün...

Dan yeri sökülür yaralı yerdən,
Götür şəhid olmuş balanı yerdən!
Keçilməz yollardan, dolama yerdən,
Yol tapıb canımdan keçdim səninçün.

## XARI BÜLBÜL

Bir tweetlə gəldi xəbərin –
Çiçəyim, quşum!

On deyil,
On beş deyil,
İyirmi də deyil,
Tam iyirmi səkkiz il sonra
döndün Şuşamla.

Kəlimələrə tökəmmirəm
səni…
Sadəcə
gözümdən yaşlar tökülür
misra-misra,
yaşam-yaşam,
Şuşam!

***

Qanım çəkdi səni "Şeyx Zahid[1] işığında",
İndi damarlarımda gəzir şəklin,
Görsən – cənnətdən qovulmuş Həvvayam,
görməsən, özümlə dava.

Bir ip ucu taxdın
şəhadət barmağıma o gün –
La ilahə illəllah!
Çəksəm söküləcək dan yeri,
çəkməsəm boğazımda düyün qalacaq.

Bir ağac göstərdin mənə
payızın içində.
Ağac ağac deyildi ki,
səni görəndə tumurcuq bükümü,
görməyəndə yarpaq tökümüydü...

Tövbə qapısıdır gözlərin,
açsam tövbəli Gəlinəm,
açmasam dəlin.

---

[1] Şeyx Zahid Gilani – sufi Zahidiyyə təriqətinin banisi, islam alimi.

Halalım olmasan da, hülulumsan...
Qanım çəkdi səni,
indi "çəkim-çəkməyim" sualı yorur məni...

şəkillərdən baxan gözsən,
görən, haradasan!

Dondan-dona girməyini istəmirəm daha,
məndə qal, tənasüh etmə,
getmə!

...Sən getdin deyə qınamıram heç,
gözləyirəm ricətini.
Yenə gələcəksənmi?
İltifat etmə,
bilirəm,
çətin…

## ADINI SƏN QOY

Ozan çalsın havamızı,
Adını sən qoy...
Uçurduğun yuvamızın,
Adını sən qoy...

Hər gün bir az darıxmağın,
Durub özümdən çıxmağın,
Gözdən ürəyə axmağın,
Adını sən qoy.

Baxır hey arxanca gözüm,
Gözümdə mirvari düzüm,
Doğulmayan körpəmizin
adını sən qoy.

Bu qədərmiş... bitdi oyun,
Boğazımda sevgim düyün.
Ürəyinə öz sevdiyin
qadını sən qoy.
Adını sən qoy…

## MƏNİM BİR SUALIM VAR

Kəsmişdim üzünü xoşuma gəlməyən kitabın,
uşaq vaxtı...
İndi də xoşuma gəlməyən
        insanların ayağını kəsirəm
ömrümdən.

Çəkmişdim rəsmini anamın,
            doqquz yaşımda...
Üç dəfə öpmüşdü məni.
Yanağına qəmzələr qoymuşdum
            bir gülüşüylə...

Bağçamıza qızılgül qələmi əkmişdim
              Gecəgözlüdə...
Böyüyüb "ayrılıq" yazdı ömrümə:
Yurdumdan...
Anamdan...
Səndən...
İndi də özümdən ayrılıram.
Ayrılıram ki, Allaha yaxınlaşım.

Bu ilin martında da sən getdin, ata!
Axund dedi ki,
cümə günü ölənlər sorğu-sual olunmaz.

Mənim bir sualım var:
– Anamı gördünmü?

## ANAMIN HEKAYƏSİ

Bir anam vardı,
saçları altun, gözləri ala,
Yuvasında göyərçin-göyərçin
beş bala...

Bir müəllim vardı,
məktəblə evin arasında qalmışdı
ayaqları…
Zəkasında işıq,
əllərində qələm, dəftər,
dəftərində sinif-sinif uşaqlar,
qələmində qiymətlər...

Bir dostum vardı,
sirrimi verdim –
aldığım ilk sevgi məktubunu
o, oxudu…

Bir dişi quş vardı,
qurdu yuvasını dişiylə-dırnağıyla…
Gözlərində od gətirdi,
dimdiyində su gətirdi,
döşündə süd…

Bir qadın vardı,
həyat yoldaşını atıb getdi 99-da…
Həmin gündən bəri
son mənzilindən baxır hər kəsə…

Bir insan vardı,
nə şəfqətindən doydular,
nə də söhbətindən…
Gedərkən arxasınca ağladı hamı.
Allah hər şey verdi ona,
bircə şəfadan başqa…

Bir müəllim anam vardı,
başqa idi, bambaşqa,
qiymətini Tanrı yazdı…

## BİR CÜMƏ GÜNÜ

Sən barmaqlarını yeyirsən duyğulananda,
mən dilimi uduram…
Sənin barmaqlarından bal damır,
mənim dilimdən şeir.

Sən öz türkcənin incəliklərinə girirsən
ən incik halında,
mən dilimi uduram Boğazda –
ismin yerlik halında unuduluram…

Sən yumruğunu Vətən daşına vurursan,
kəsilir,
barmaqlarından qan yaddaşım damır…
Hər daşın altından şəhid olmuş mən çıxıram,
Dilim çıxır, Vətənim çıxır,
qurban olduğum vətənim və tənim.
Qürbət tənədir…

Yağdırırsan öz türkcəndəki dadlı sözləri,
yağ-bal içində olsam da
mən dilimi yadırğamıram…

Tut əlimdən! – deyirsən,
tutulur dilim.
Barmaqların Vətən dadır...

Həsrətdən uçur əllərim,
əllərim göydəykən oxunan
Səladan[1] duyuram
Sılanın[2] öldüyünü,
bir cümə günü İstanbulda…

[1] Səla – Məhəmməd Peyğəmbərə olan sevgi və hörmətin ifadəsi olaraq səsləndirilən, həmçinin möminləri ibadətə dəvət edən, xüsusilə, cümə günlərindən öncə oxunan duadır. Eyni zamanda, birinin ölüm xəbərini vermək üçün də səla oxunur.

[2] Sıla – qürbətdə olan bir insanın doğub-böyüdüyü yerə olan həsrəti. Sıla insanların psixoloji ehtiyacıdır.

## ÜÇ NÖQTƏ

Kişi və qadın...
Kişini qadından bağlayıcı ayırır...

Kişi-qadın...
Kişi ilə qadını bir düz xətt birləşdirir.
İki nöqtədən yalnız bir düz xətt keçir,
Üçüncü məşuqədir.

Kişi atadır,
Qadın ana...
Uşaq isə uşaq...

Bəs uşaq yoxdursa?!
Uşaq yoxdursa,
Kişi kişidir,
Qadın qadın...
Uşaq isə
Allahın işidir!

## DİALOQ

– Sizdə təkliyə xırda olmaz?
– Bizdə həmişə təklikdir...
– Gəl evlənək, sən darıxmamaq üçünsən...
– Darıxmaq mənim üçündür, amma.
– Kişisiz necə yaşayırsan?
– Kişi kimi...
– Ürəyim səni istəyir...
– Ürəyin var sənin?
– Bilmirəm, sol tərəfimdə nə isə hürür.
– Mən hardayam? İt hürən yerdə, yoxsa işıq gələndə?
– İt hürən yerdəsən, ulayırıq...
– Aç qollarını, bağla gözlərini, uzat əlini...
– Aç köynəyimi...
– Kərəm kimi?
– …
– Yeni roman yazıram...
– Məni də romanına sal.
– Bileti 10 manatdır.
– Mənə iki bilet ver.
– Kiminlə gələcəksən?
– Sevdiyimlə...
– Hələ də onu sevirsən? Görüşürsünüz?
– Romanda görüşəcəyik də...

## RƏSSAM

*S.Soltanlının rəsmlərinə baxarkən...*

Su çəkmisən quru və qara torpaqlara
yaşıllıq gəlsin, deyə...
Yaxşılıq gəlir əlindən, biganə deyilsən...
Yaxşılıq – insanın bu dünyada qoyub getdiyi
əməli,
həm də özüylə apardığı yeganə xəzinədir...

Par-par parlayır dərin təmizlikdən,
yanaqlarında suyun rəngi
və dərinliyi gözlərində bulaqların...
elə sadəsən, elə bil Bəhlulzadəsən.
Otların nəfəsi canlanır,
dəlib çıxır cadar-cadar olmuş torpaqları.
Bəs sən özün haradasan?

Su çəkmisən yanaqları qırış-qırış düzlərə,
Artıq ölümə qarşı qorxusuzluq yaranıb bu
rəsmdə...

Fırçanda gəzdirirsən dünyanın nəfəsini,
Rəngdən-rəngə salırsan qəfəsdəki bir quşun
səsini.
Çılpaq ağaclara bağlanmış diləklərə bax,
körpə-körpə tumurcuqlar,
bükülürlər yaşıl bələklərə, sulu boyadan
sonra...

Bir köhlən atlı
buludları çəkib aparır suya həsrət torpaqlara.

Saqqalını yuva etmiş bir qoca,
bəsləyir bir quşcuğazı mərhəmətlə,
heca-heca yazıram gördüklərimi...
Sonra qarşımda duzla dolu dənizlə
qarşılaşıram.

Sənin əllərindən çıxan fikirlər dərin-dərin,
bu nədir ki, hələ!
Dəniz gömgöy sularını saralan otlara
vermək üçün
can atır sahilə,
nafilə...

Tökülür fırçandan qumlar xışıltılı səslə,
bir qum və qəm dənəsi düşür gözlərimə
susuzluqdan yanan və qaralan
Somalili uşaqları gördükcə...

Ölümü əyləncə bilib boğazındakı kəndirdə
yellənirdi bir uşaq...
həmin gün ananın yapdığı çörəklər
küt getmişdi təndirdə...

Birdən özümü görürəm,
canı şüşədə olan bir div
asıb məni qara saçlarımdan mağarada.
Sən şüşəni sındırırsan, mən düşürəm
saçlarımdan.
Sonra qırx qapı keçirik,

(saçlarım düşürür məni qırx yaşımın
uclarından
ağara-ağara)...
Bir qara və bir ağ qoçun belində çıxıram
Yerin üstünə.
Rastıma çıxanlara əl uzadıram və "salam"
verirəm,

parlayır boynumda qara qızıl –
torpağının altı üstündən qiymətlidir bu
məmləkətin, bilirəm.

Dənizi yorğan kimi çəkmisən şəhərin üstünə,
Qala divarlarını boyunbağı, parkları
bilərzik kimi...
Alov qüllələrini üçqaşlı bir üzük kimi
taxmısan
şəhərin şəhadət barmağına,
Şəhidlər xiyabanının yanında...

Çəkirsən əlimdən tutub,
Mən də yavaş-yavaş sevməyə başlayıram
rəngləri, ən çox da sarını.
Götür fırçanı, rəssam, çək, gözləmə yarını!

## QOXULA MƏNİ

Mən bir gözəl mələk olum,
Yuxularda yoxla məni...
Kipriklərin yorulanda,
Ürəyində saxla məni.

Aç qolların uzanınca,
Hicran yaşanarmı bunca?
Sarıl boynuma doyunca,
Nəfəs-nəfəs qoxula məni.

Ayrılıq məni dağlayar,
Gözlərim yosun bağlayar,
Anam yox, məni ağlaya,
Nə olar, gəl, ağla məni...

Qov, dağılsın qara bulud,
Ağlamağı unut, unut...
Yum gözünü, bir arzu tut,
Tut, bir də buraxma məni...

## KİMLİK

Soyadı: Azərbaycan
Adı: Badi-Kubə
Atasının adı: Tarix
Doğum tarixi: erkən orta əsrlər
Doğulduğu yer: Abşeron yarımadası
Ailə vəziyyəti: bakirə

Bir yanda Qız qalası, İçəri şəhər,
O biri yanda Xəzər.
Odlar yurdunun oduna qızınıb,
Xəzərdən su içib.

Qara qızıl axır damarlarında,
Qara, qapqara qanı müsbət birdir.
Xəzər boyda iri gözlərinin rəngi mavi,
Boyu uca, Bayıldan Biləcəriyə qədər,
Hərbi vəziyyəti – qəhrəman şəhər.

Bakı, Bakı...
Səni o qədər sevdim ki...

# İKİ ŞƏHƏR

İkisi də xanım-xatun,
İkisi də qədim-qayım,
Tarixlə iç-içə, qol-boyun…

Biri tarixin şeiri,
O biri şeirin şəhəri…

İkisi də yaşayar dörd mövsümü
doya-doya, duya-duya.
İkisi də ovsunlu,
İkisi də qədim, ulu.
İkisindən də keçmiş
"İpək" adlı "kültür" yolu…

Birinin bir dili var –
təmiz türkcədə Dil açar.
Digərinin iki dili,
hələ bu nədir ki!
Birinin başında qağayılar uçar,
O birinin taleyindən elə hey küləklər keçər…

Zeytun qoxar birinin saçları,
Türklük var qanında…
O birinin saçlarında neştərli küknar ucları –
bəzənər hər ilin sonunda…

Birinin bir dənizi var, digərinin iki.
İki şəhər, iki ürək, eyni tale cizgisi…
Birinin gözləri qara,
Kirpikləri çəkər dara…
Digərinin gözləri bir cüt mavi “boncuk”.
Hisarların[1] dodaqları uçuq-uçuq…

Birinin bir boğazı var –
bir öküzün buynuzunda…
Digərinin də səsi var –
sirli Muğam boğazında.

Birinin Qız qalası var,
o birinin “Kız kulesi”.
Birinin Ayasofyası, Topqapı sarayı,
o birinin Şirvanşahları.

Birinin divarlarında
Allah sözü həkk olunan camiləri çox…
O birinin nurlu camları,
işıqlı pəncərə gözləri…

Biri qoynunda tarix yatıran,
iki yaxası bir araya gəlməyən
dünya şəhəri…

---

1 Hisar - tarixi qala divarları.

Digəri İçəri şəhərlə bayır şəhərin
bir yerdə qovuşduğu,
içim-çölüm dediyim –
Ana şəhərim.

Birinin hər gün tezdən
açılar gözləri oxunan azan səslərinə…
Digərinin gecə-gündüz açıq
Xəzər boyda gözləri…
Qurban olum gözlərinə.

Biri məni bir saat geri çəkən,
yaşadığım şəhər,
digəri ürəyimdə daşıdığım şəhər.

İkisi də doğma, əziz.
İki şəhər arasında təmiz eşqlər yaşandı,
tərtəmiz…

Birinin odu sönməz Atəşgah ocağında…
Biri tarixlər yatırıb isti-isti qucağında…

İkisi də gözəl, ikisi də:
Ömrümü aldılar asta-asta,
üsul-üsul,
biri Bakı,
o biri İstanbul.

***

Dilinin altında gizlənir insan,
Bu, ən böyük coğrafi kəşfimdir, bəlkə də...

Qobustandakı qayaüstü təsvirlərdi,
Qavaldaşının gurlayan səsidi,
arxeoloqun dəyməmiş nəfəsidir,
dilinin altı ibtidainin.
Hələ insanın təbiətlə iç-içə olan vaxtı
yarandı kaman və ox.

Boğaziçindən çıxan boğazsamitli
səsdən sonra tanıdım dinimi,
sonra dilimi –
İllər öncənin kitablarında kirli kirilindən,
təmiz əlifdən, bədən,
ta səndən başladı latınım da,
anam-atam da,
ey Adəm!...

Bir karvan kimi keçir bədənimdən fikirlər,
Qələm tələsir düşüncələri almağa,
Karvansara qapısı kimi açılır səhər,
Sürətləndirilmiş görüntüdür həyata maraq...
Bax beləcə, fikirlər harasa tələsir,
Gecənin səhəri bağlayacağından qorxaraq,
dilinin altından çıxır insan...

Qalaktika, Ay və Günəş,
Yerin kürə forması,
İndi nağıl deyil daha, kosmosa uçmaq da var,
Sehirli xalçalar yoxdu daha,
sehirli təyyarələr var, bir də səyyarələr,
nağıl dili yüyrək olar.
Nağıllardan düşmür daha nənəmin üç alması,
Nənəm də yoxdu daha,
dilinin altında gizlənib nağıllar.

Yerin qara üzü gəlir, səssizlik çökür gecəyə,
yerlər salınır,
dilinin altında yatır hamı...

## NƏNƏMİN NAĞILLARI

*Gülayə nənəmə ithaf*

Böyüdübdü bizləri
Nənəmin nağılları,
Açıb bağlı gözləri
Nənəmin nağılları.

Nağıl-nağıl gəzərdi,
Danə-danə düzərdi,
Elə şirin, gözəldi
Nənəmin nağılları.

Hər nağıl bir muncuqdu,
Sapdan ayrı incikdi,
Evimdə bir evcikdi
Nənəmin nağılları.

Sinədəftər deyərdi,
Yüz kitaba dəyərdi.
Ürəyimdə göyərdi
Nənəmin nağılları.

Qoğal dadan "Qoğal"ı,
"Şah Abbasın oğulu",
"Qızılbaldır" nağılı –
Nənəmin nağılları.

Nağıl deyib durardı,
Sobasını qalardı...
Qışa möhür vurardı
Nənəmin nağılları.

Nağıl payı döşündə,
Olardı qız yaşında.
Bişdi ocaq başında
Nənəmin nağılları...

Almaları üç etdi,
Nənəm getdikcə getdi,
Nağıllara köç etdi
Nənəmin nağılları.

## MƏN, SƏN, O

Hər şey Mənim əlimdə,
Ürəyim,
əfv fərmanım,
imzam,
qollarım...
Açın qollarımı!

Hər şey Sənin əlində,
Sorğu-sual,
Durğu və duyğu işarələri,
son cümlə,
nöqtən.
Ürəyimə ölümcül həmlən...
Son dəfə getmək istəyim,
üzümə bağlı qapıların dəstəyi...
Açın qapıları!

Hər şey Onun əlində,
Qələm,
Yazı,
Olum və ölüm,
Açın gözlərinizi!

## MÖCÜZƏ HƏYATLAR

*Türkiyədəki zəlzələdən sonra uçqunlar altından çıxarılan uşaqların gerçək hekayəsi...*

– Sənin adın nə?
– Zübeydə.
– Nə gözəl qızsan sən bir də!
– Evdəyikmi?
– Evdəyik, evdə.
– Siz evə necə girdiniz?
– Pəncərədən, bax burdan girdik.
Baxdıq ki, burda bir can var,
Bir də çox gözəl bir fidan.
– Mən niyə buradayam bəs?
– Gizlənqaç oynayırdıq biz...
– Hımmm...
– Mən də yaxaladım səni.

Yaxaladım səni, qızım,
Ölümə fürsət vermədən...
Uçqunlara körpə fidan
Bir həyat vermədim, qızım!

– Yağmur, tez ol, gəl, gəl bəri!
– Çıxa bilmirəm ki, burdan.
– Çıxaracam səni, bir görüm.
– Atam harda? Hanı atam?
 Ata, mən çox ü-şü-yü-rəm,
 Əl-lə-rim soo-yuq, bəm-bə-yaz...
– Qızım, az qaldı, çox-çox az...

Alacam səni uçqundan,
Toz-dumandan və acıdan...
Uzat mənə əllərini,
Çıxaq bu soyuq hecadan...

– Hazal, neçə yaşındasan?
– Beş... beş olacaqdır bu yaz.
– Sənə bir az su verimmi?
– Müayinə olmadan olmaz.
– Sən məktəbə gedirsənmi?
– Yox, gedəcəm, gələn payız...

Hazal, ən böyük məktəbi
Üç gündə bitirdin, yavrum...
Gördüyün dərin yuxuydu,
Düşdüyün beton yığını...
Heç kimə demə yuxunu!

*09.02.2023 (İstanbul)*

# ADAM OLMADI BİZDƏN

Evcik-evcik oynadıq,
Ev qurduq özümüzdən...
Böyüyüb uşaq olduq,
Adam olmadı bizdən...

Ən şirin oyuncağın,
Gəlinciyin də məndim,
Min yol qolumu qırdın,
Bir qol da incimədim...

Görən indi hardasan?
Gəlmirsənsə özün bil,
Atdığın gəlinciyi,
Yol gözləyən qızın bil...

Mənsə ürəyim dolu
Su atmışam dalınca...
Oh, yamanca susadım,
Ürəyim boş qalınca...

## QƏRBİ QARADƏNİZ SƏFƏRİ

Unutdum qəribliyi Qərbi Qaradənizdə,
Unutdum yazı,
payızın gözəlliyini görüncə yerdə-göydə,
yolda-izdə.
Aşina gəldi hər yer,
xoşuma gəldi hər yer.
Saçlarımı rüzgarlar daradı.
Unutdum qəribliyi Qərbi Qaradənizdə –
gözlərim Qara dənizin mavisini aradı.
içindən min illər keçib,
indi də mən keçirəm
zəngin tarix qoxuyan bu yerlərdən,
içimə çəkərək birnəfəsə oxuyuram şəhəri,
Qıfılı açılır daşların dilinin, danışır
susmadan.
Keçmişin pıçıltıları qəflətən qulaqlarıma
dolur küləkqarışıq,
bir də Fateh Sultan Mehmetin fərmanları[1]…

---

[1] Fateh Sultan Mehmet 1460-cı ildə Çandaroğlu bəyliyinə aid olan Kastamonunu Osmanlı dövlətinin tərkibinə daxil etmiş, başqa sözlə desək, bir Türk bəyliyinin əlindən alıb digərinə qatmış.

Sığal çəkib nur üzünə yüzilliklər,
hələ də bənzəyir özünə evlər, dağlar,
daşlar, təpəliklər…
Hər yerində bir əsalət, hikmət,
kəşf elə, deyir, məni…

Payızdan geyinib qızılı donu,
Ətli əkməklə[1] qarşıma çıxdı
Kastamonu…

Belə qalar haçanacan, bəlli deyil,
O qədər gözəl ki, donub qaldım saçlarımın
ucunacan.
Araç ilçəsindən,
İneboludan başlayır gözəlliklər,
özünə bənzəyir rəngi-ruhu,
bir az şəhidlərlə dolu tarixi.

Hələ də açılmayıb
Şəhid Şərifə bacının[2] əllərinin donu…

---

[1] Kastamonunun yerli yeməyidir ətli əkmək.

[2] Qurtuluş savaşı zamanı İneboludan öküz arabalarıyla Kastamonuya mərmi, silah-sursat daşınmalıymış. Hər evdən bir araba yola çıxır. 1921-ci lin son günlərində Şərifə Bacı 6 aylıq körpəsi Eliflə bərabər yola düzəlir, Kastamonu

Şərifələr yurdu İgid İnebolu,[1]
Çanaqqalada ən çox şəhid verən məmləkət –
kəşf eylə, deyir, əlbət,
Kastamonu, Kastamonu…

Sadəcə məmləkət deyib keçmədim,
nələr var burda, nələr:
tarix qoxuyan qərinələr, vədlər,
dərin dar dərələr, vadilər,
mədəniyyət, kültür beşiyi,
Tarixi "konak"ları, daşla taxtanın qovuşduğu
memari evlərin cazibəsi,
Kastamonu çəkirdi bizi,
biz onu kadrlara çəkdikcə…

---

Kışlasına yaxınlaşdıqda top mərmiləri islanmasın deyə gödəkcəsini mərmilərin üzərinə örtür. Körpəsi ölməsin deyə isə özünü onun üstünə sipər edir. Vücud istiliyini körpəsinə verən Şərifə Bacı soyuqdan donaraq yolda şəhid olur.

[1] 1924-cü ildə İstiqlal medalı alan ilk və tək ilçə olan İneboluya, Atatürkün tövsiyəsi ilə TBMM tərəfindən "yiğit" adı verilmişdir. İnebolulular igid adını ''Biz hər Türk övladının edəcəyi kimi vətəni vəzifəmizi yerinə yetirdik, hər Türk igiddir, fərqimiz yoxdur'' məntiqiylə istifadə etməmişlər. Buna görə də, bu ilçəyə hələ də, sadəcə İnebolu deyilməkdədir.

Şapka muzeyini gördümmü,
Şapka devriminə girdim elə bil,
susdum qaldım şapkalar içində, varmıydı
başıma yaraşanı?
Biləmədim.
Gözlərim böyüdü, hər başda bir şapka,
hər şapka altında bir baş:
əslində bura çalışan başlar muzeyiydi
adını tarixə qazıyan başlar...
ən başda da o vardı – devrimi oyadan Türk.[1]

Hündürdən baxanda bir əzəmət dünyası
çıxdı önümə
Kastamonu qalası ilə tanışanda:
Tarixin, yüzillərin, şahların, qanlı əllərin,
depremlərin, dəfinəçilərin, daha kimlərin,
daha nəçilərin
əllərindən yaralar almış möhtəşəm qala.
Bu dilli qalanın tarix üzünə cızıqlar atdı,
şahlar başına toplar qondurdu,

---

[1] Şapka devrimi və ya Şapka inqilabı Türkiyə Cümhuriyyətinin qurulmasından sonra kişilərin baş geyimlərinin düzənlənərək Qərb ölkələrindəki normalara uyğun hala gətirilməsi üçün 1925-ci ildə Atatürk tərəfindən verilən Qanuni tənzimləmədir.

top oynadı əsrlərlə,
sonunda uduzan da, udan da bu möhtəşəm
qala oldu.
Bütün faniliklər getdi, gəldi-gedərliklər getdi,
Bircə qalan Qala oldu.
"Tikdim ki izim qala" deyənlərin
bu qara daşlar üzərində
çıxardıqları gözlərin gözü qaldı.
Nə şahlar keçdi buradan,
mat oldular tarixin taxtasında,
gözü olmayanların
əlləri ədalətin yaxasında qaldı.

Ən yüksək təpədə açdım gözlərimi,
yüzillərin o üzündən oyandım:
Qan gölməçələrini yudu yağışlar,
qurutdu doğan günəşlər...
daha Kastamonu qalasından
düşməz günəş rəngində al bayraq.
Hündürdən baxanda,
Kastamonu evləri kibrit qutusu,
çayları saplı iynə, yolları qıvrım-qıvrım,
qovşaqları düymə-düymə görünürdü...

Qaladan enincə, mədəmə də aclıq endi.
Bir quzu gərdan çorbası,
üstündən də çəkmə halva...
Gözəlləşdi hava gözümdə,
"çəkmə halva"nı yedikcə çəkdi məni:
Getmə, bir az da,
"sən qalanın yanında qalginən, sənə
qurban" – dedi...

Bir də valeh etdi məni
Göyırmak çayı, onun dupduru suları,
Bir də, bir də səmada sonsuz nöqtələr
oluşdurub
pırlayan, parıldayan Göyırmağın quşları.

Üzümüz Bartına yol aldı...
Yol gedirdi Amasraya.
Tarixdən duyduğum kəlimə:
"Lala, lala! Çeşmi-Cihan bumu ola".[1]
"Mən belə gözəl bir yerə ziyan vurmaq
istəmirəm,
gətirin qalanın açarlarını"

---

[1] Fateh Sultan Mehmetin ilk dəfə Amasranı görərkən söylədiyi cümlə.

deyən Mehmeti heyran qoyan Amasra.[1]
Dənizə doğru uzanan sivri burnu,
burnun hər iki tərəfində nəfəs alan cazibə...
İki qara torpaq üzərinə qonmuş mirvari
misali,
qəvvasların dürrü-yetimi – Amasra.
İncə belinə sarılan gümüş kəmər –
Boztəpə Kəmərə körpüsü – birləşdirər
Amasranın o tayla bu tayını.
Qaradənizin qara incisi,
bir də taleyinə əsir düşmüş Amasra qalası.
Ondan qalmışmı iz?
Qalan möcüzəvi yurd, bir də dəniz havası...
Dünyanın göz bəbəyi,
Qaradənizin mavi göz nuru,
bir də gözünün ilk avı,

---

[1] Amasranı ilk görəndə vurulan Fateh Sultan Mehmet, Lalasına (atabəyinə) "Lala Lala! Çeşmi-Cihan (dünyanın dəyərlisi) bumu ola?" diyə soruşur. O andan sonra buranı döyüşsüz alır. Çünki istədiyi son şey bu gözəl şəhərin ziyan görməməsi idi. Amasranın qədim dövrdəki adı "Susam diyarı" mənasına gələn və e.ə. III əsrdə Amasranı idarə edən qadın lider Amastrisin adıyla bağlı olaraq Sesamos olub. Osmanlı zamanında isə Amasra adlandırılıb.

Bir də,
bir də,
dadı damaqdan getməyən hamsisi...

Görmək istədiyim yerlər bağlantı
qurduğum zaman,
daha gözəl çəkər məni, daha erkən
gerçəkləşər...

İçimdə Amasra sevdası –
keçdim Bartından üzü Safranboluya,
Ulus ağac tunelində öpüşdü iki diyarın
sevdası,
qol-boyun oldu altın rəngli ağaclar.
Yol Safranboluya vardı –
Safranbolu – zəfəranı bol şəhər,
burdan çıxır bitkilərin gözdəsi...
Bir də gözlərə gözəllik qatan
insanı heyran edən əski çarşısı...
Gecənin içindən ulduzlara baxıram,
onlar da şahid bu yerə,
Burda bulunmuş "cümlə çün",
"Şərhi-bəyana sığmayan"
Safranbolu...

Səfər sonuna varanda,
Bir sual məni yoranda ki, hansı daha gözəl?
Düşündüm-daşındım və dedim ki, hamısı...

## AYRILIQ

Saçıma hörürəm ayrılıqları,
Ayrılıq rəngini çəkib getmisən.
Dümağ çiçəkləri göyərtmək üçün,
Sən göz yaşlarını töküb getmisən.

Hər an buğda boyu artır ayrılıq,
Böyüyür yavaşca o, sən görəndən,
Mənim ürəyimlə görüşə gəlib,
Sənin gözlərini küsən görəndən.

Günlü günlərimin nəfəsi yansın,
Yuxa ürəyimi soyuğa verdim.
Üşüdüm ömrümün dolaylarında,
Haçansa sevgimi sədəqə verdim.

Bu gecə qavaltək götürür Ayı,
Bu gecə inləyir segah üstündə.
Səni ürəyimin dərinliyindən,
Çıxara bilsəydim bir ah üstündə.

## YARI DƏRD, YARI ADAM

Dərd çəkir öz içində,
Yarı dərd, yarı adam.
Gözləri tərəzidir,
Qaşları tarım adam.

Yığılıb gilə-gilə,
Dürr tökür gülə-gülə,
İsti sevgilər ilə
Arası sərin adam.

Göz qapağı yığılır,
Fikri düşüb dağılır,
Öz içində boğulur,
Dəryadan dərin adam.

***

İşığın yoxluğudur hər görünməz qaranlıq,
deyirəm ki, qapılma qaranlığa bir anlıq!

Çəkilərsən içinə, boğularsan dərində,
qalarsan ürəyinin ən çıxılmaz yerində.

Bir nəfəs üfürərsən dünyanın kor üzünə...
Bu korluğa, karlığa qorxarsan yoluxmaqdan,
biryolluq yox olmaqdan.

Boynu bükülü qalma yorunca boğazını,
bir ipə keçirərsən boğazından arzunu,
asarsan bir ağacdan,
Ağac Adəm gətirər.

O qadağan olunmuş ağacdan düşər Həvva,
düşər öz budağından Yerdə yetişər Həvva,
ağac cənnətdə qalar.

Şəkli, boyu-buxunu, ismi keçməz heç yerdə...
kökü cənnətdə qalar onu görməz heç Yer də!

Bir az da düşünərsən:
Burdan keçirmiş yolum!?
– Dilini şirin eylə,
dünya zəhərdi, Balım!

# XİROMANTİYA

Dərin-dərin cızıqdır, cızıq var yazıq-yuzuqdur,
Əllərimin içinə yazılan alın yazım.
Bir yerində aydındı, bir yerində pozuqdu,
Bir az nazik, bir az da sətiri qalın yazım.

Hər cığırı ayrıca yaşamışam, görmüşəm,
Hər cığırdan boy verən diriliyi dərmişəm...
Heç özüm də bilmədən iki yerə bölmüşəm:
Bir üzü qız, bir üzü hələ də gəlin yazım.

Hər sətrin üzərində ayrılığın nəğməsi,
Neçə dona giribdir notun yanıqlı səsi,
Elə bil daralıbdı nəğmələrin nəfəsi,
Ümidə köklənəndə gözləri dolan yazım!

Nə əlimi kəsmədim, nə də ki notlarını,
Yaddaşıma köçürtdüm ovcumun xətlərini.
Yenə əlindən tutdum düşən ümidlərimin,
Yenə də öz əlimdə-ovcumda qalan yazım.

Dişiylə-dırnağıyla barmaqlarım hücumda,
Şeytan yuva qurmasın dırnaqların ucunda.
Açsam soyuq əlimdə, yumsam isti ovcumda
Ömrümə başıbağlı, ayağı yalın yazım...

## AY ADAMLAR

Gəldim ömrü dünyadan,
Ötürəm, ay adamlar!
Gəlmədim çıxacağı
İtirəm, ay adamlar!

Yüküm özcə yaşıdım,
Daşıdım, hey daşıdım...
Qoymayın yavaşıdım,
Çatıram, ay adamlar!

Küsdü baxtım öfkədən,
Çıxıb getdi, o gedən...
Bir ölümcül sevgidən
Yatıram, ay adamlar!

Uçum gedim huş kimi,
Tuti kimi, quş kimi,
Adamlığı daş kimi,
Atıram, ay adamlar!

## GÜN, KÜÇƏ VƏ ADAM

Bir yağış tutdu bizi
günün günorta çağı.
Bir gün, bir küçə və bir adam –
Günün günortasında,
küçənin ortasında,
orta yaşlı bir adam islanırdı yağışda.

Tutdum yağışın ucundan çətir oldum –
bir gün, bir küçə və bir adamı
sətir-sətir qorumaq üçün.

O küçə ona aid olmayan binalarda bitdi...

O gün –
ona aid olan bu yağışdan
yaxasını qurtarmaq ümidiylə
keçdi o küçədən növbəti günə...

O adamı bir fikir tutdu qolları bağlı
bu gündən, bu küçədən keçən zaman.
O adam ürəyini açdı yağışa:
islandı, üşüdü,

qollarını açdı küçəyə, qucaqladı,
canı çəkildi çarmıxa,
nə qədər fikir daşıdı...
O adamın saçlarındakı ağlar
mələklərin qanadlarından düşmüşdü...

Mən də buraxdım yağışın ucunu
endim Yerə...

## ƏSGƏRƏ MƏKTUB

Nə yazım sənə, əsgər?
Söz də tapa bilmirəm.
SÖZ,
Şuşada yazaram.
Tutaram əllərindən
Görüşəndə yazaram.

Nə yazım sənə, əsgər,
Haqqını halal eylə!
Zərfə zəfər qoy göndər,
Nə göndərsən içində
Kənd adını bol eylə!

Nə yazım sənə, əsgər,
donurmu yanaqların,
qızarıbmı əllərin,
ordan üzün ağ qayıt...
Yağdırım duaları,
yerdə qoyma, yığ qayıt,
o tökülən qanları.

Nə yazım sənə, əsgər?
Burnumun ucu göynər,
dodağım para-para,
həsrət-həsrət uçuqlar...
Kəndimin üzündən öp,
Evimizi qucaqla!

Nə yazım sənə, əsgər,
Payız gedir, bizimsə
verdiyimiz söz qalıb,
de ki, de ki, gəlirik
Qarabağa, az qalıb!

Nə yazım sənə, əsgər,
Xəbər çıxıb Vətəndən,
Qələm cəbhəyə gedib,
sən səngərdən yazırsan,
əlin silah tutandan.

Nə yazım sənə əsgər:
Hər günün hücum olsun,
Qələbə tacın olsun.
Şəhid olsan... canımsan,
Sağ qayıt, bacın ölsün!

***

Bir snayper gülləsi
nişangah görüb uçdu.
Komandirin alnında
Şəhid nöqtəsi açdı...

Anam öpən alnının
arası dodaq rəngdə...
Dodağı göydən də göy,
yarası dodaq rəngdə.

Qara xəbər tez gəldi...
Hələ isti ayağı,
yavaş-yavaş soyudu,
yerdən küsdü ayağı,
daha göylərdə gəzir...

İndi Vətən öpəcək
daşa dönən alnından.
Alın yazısı köçür
nişanlanan alnından...

## QARABAĞ

Yarımsan,
yarı məndə, yarı səndə qalan.

Tariximsən,
köçhaköç, qaçhaqaç, gəlim-alım dediyim
bir az məsum, bir az da zalım
tarixim.

Sən haramsan düşmənə...
Ünvanımsan,
“Salam, əsgər” məktublarımın ünvanı,
adımın, kəndimin,
özümün yazıldığı hər anımsan.

Çeşməmsən – gözümdən axan,
mənsiz darıxan Adamsan.

Sən nidamsan,
vurğuyla bir cümlənin sonuna atılan...

Nəfəsimsən, aç nəfəsliyimi,
Dururmu Topxanam?

Yolumsan,
2783 ürəklə açılan Turan yolum,
Aç qoynunu, sənə yenidən toxunmağa,
Səni ev-ev, xana-xana
toxumağa gəldim.

Sirrimsən,
Kimə soraq qorunan açarların
heç vaxt açmayacağı qapıları...
Evimizə gəlmişəm əlimdə çıraq,
Söz ver ayrılmayacağımıza,
Qarabağ!

## ŞƏHİDİM

*Baş leytenant Teymur Məcidzadəyə ithaf*

Elə getmisən ki,
savaşın qaynar yerindən,
yerini göz yaşı da soyuda bilmir.

Elə getmisən ki, olmayan kimi…
Dağların başından – qayadan,
torpağa qayıdan kimi…

Elə getmisən ki, bir eldən –
ürəyə dönüb şəklin,
döyünür hər gözdə…
Gözlərin nur topu,
nə tez açıldı cənnəti-məkanda qapın?

Elə getmisən ki,
Ananın canından can ayrılıb,
“Vətənim sənsən” deyirdi,
Sən adlı bir Azərbaycan ayrılıb.

Elə getmisən ki!
Səni gözləyirdi yurd,
səkkiz aylıq ikən qucaqda çıxdığın kənd…
gözlədi gəlişini,
28 yaşının gülüşünü dodaqlarında…
Elə getmisən ki, o kəndin qucağından,
indi adın yazılan mərmilərin
səsi çıxır hər atəş ocağından.

Sən gedəli quruyub çaylar,
Çərəkən yox olub, bulaqlar kor,
yıxılıb ağaclar, yıxılıb evlər qalaq-qalaq,
yıxıq-yıxıq…
Bircə quşlar susmayıb,
susmayıb Azadlıq.

Elə getmisən ki,
Çağırıb səni Qeyb…
Bu gediş dəyişib adını,
Şəhid qoyub… Şəhidim heyyy!

Elə uçmusan ki,
Şuşanın başından qəflətən,
cibində ayaqların,
qəlbində qəlpə,
üzündə doğma bir nur…

Başın sağ olsun, dedik, Vətən!
Elə getmisən ki, adın qalıb –
gələcək körpələrə verdik: Teymur.
Teymur,
bir də dünyaya gələcəksənmi?
Gələcəksən, həqiqətən…

# İRAQ ŞƏHƏRDƏN

Sən də bir gün dönəcəksən,
Uzaq şəhərdən.
Dönəcəksən yaşlananda
Uşaq şəhərdən.

Keçəcəksən burdan yolu,
Yorulacaq əlin-qolun.
Qara sevdalar yuyulub
Bu Ağ şəhərdə.

Nələr olub, nələr, nələr...
Ölüb içimdəki sənlər,
Viran qoyub zəlzələlər,
İraq şəhərdən.

## O FEVRAL

Bir yara var – yarar, yarar ürəkləri,
fidan-fidan körpələrin qan rəngində
bələkləri...

Bir acı var – açar-açar hər fevralda
çiçək-çiçək,
bir açar var, açar idi o gecənin
kilidini tətik-tətik,
bir fevral var biz itirdik...

Bir səs var ki, susdu-susdu o gecədə...
bir gecə var – günə çıxarmı əcaba!
Dünyanı səssizə alan
bir fevralın səsi batdı, insanların qanı...

Bir gecə var –
gecələdi qan üstündə,
neçə-neçə günahsızlar
o gecədən can daşıdı can üstündə...

Bir körpə var buz heykələ dönüb qaldı,
Bir qoca var çomağıyla donub qaldı...

Bir tarix var –
30 ildir bizdə yaşar acısıyla,
dünyaya gözünü yuman
qocasıyla, anasıyla, bacısıyla...
Neçə gəlin Leylasıyla,
anaların ahu-fəğan
613 laylasıyla...

Bir şeir var –
yazmaq mənə ağır gəlir,
o fevraldan üzü bəri,
qalıb...
Bir şəhər var sınıxıbdı,
bir sümük, bir dəri qalıb...

Bir şəhər var – doğma, əziz,
qırılıb budağı-dalı...
Dünyanı sorğuya çəkin –
çəkin masalar üstünə
Qarabağdakı o dağı...

Bir şəhər var –
Şəhər nə ki!
Ürəyimin ağrısı,
dilimin həm laylası,
həm də şəkəri, balı –
Xocalı,
Xocalı,
Xocalı...

## MONOFOBİYA

Masanın üzərində
Göyçay narı kimi qızarmış Qarabağ kətəsi –
İstanbulun boğazında
düyünlənmiş qəhər –
Qarabağ elə sevinmişdi ki,
sən əlimdən tutanda.

Bayırda üzərinə qar yağan qaranlıq,
Gecənin əynində bəmbəyaz gəlinlik
və buzdan fatası.

Çəkdiyim rəsmdə günəşi bürünməyin,
gözlərinin içində bitmək bilməyən
bir işıq –
sevdadır bəlkə də,
bəlkə də çəkmə xətası...
Nigaranam,
Nigariyəm – mənim fırçam od-alov,
boyam isə sənin varlığındır.

On il öncəki
başqa bir şəklindəki oturuşun qədər
yalnız idim Bakıda, qadası...

## SUNAMİ

Hərdən
çıxıram şəhərdən...

Xəzərin yanına gedirəm,
kəsdirirəm dizinin dibini.
O da: həm dəryadı,
həm də bircə damladı...
qalxıb üzümə su vurur hərdən.

Səni soruşuram,
deyir, daha dəymir mənə,
ağıllanıb...

Son dəfə sunami oldu,
yuyub apardı hər şeyi:
səni, məni...
sənin sevmədiyin telefonunu,
mənim sevdiyim arabamı,
qulağımdan dodaqlarını,
daşımı, yaddaşımı,
fikirlərimi,
ağırlığımı-uğurluğumu...
Elə yüngülləşdim ki –
hər şeyim Səndin...

Azad oldum bu dünyadan,
Səndən, məndən...
yox olduq...

Durub evə gəldim,
gördüm ki, evdəsən...
Ay da!
Sunami olsun
bu sevgiyə!

## GECƏ KİRPİKLİ QADIN

Gecəni sevə-sevə
gözlərinə köçürmüşdü.
Gözü üstə yer vermişdi
bir cüt hilala,
gecə gözlü qadın...

Çəpərləmişdi gecəni,
qara rənglə rəngləmişdi,
gecə kirpikli qadın...

Bir bulud doldurmağa,
bir sevgi yağdırmağa
vaxtı yox idi,
gecəsi-gündüzü yox qadının.

Evsiz-eşiksiz qalmışdı,
torpaqsız qalmışdı,
Qarabağsız qalmışdı,
qarabağlı qadın...

## O KƏND MƏNİM KƏNDİMDİ

O yer mənim kəndimdi,
Görünən dağı deyir –
Çəkilib sinəsinə,
Hər gün bir ağı deyir...

Yanıbdı hər addımda,
Acıları yadımda...
Gözəl olub qədimdə,
Quru torpağı deyir.

O ev mənim evimdi,
Əsgər görüb sevindi,
Dağıntılar ovundu,
Batan yanağı deyir.

Yemi olub divlərin...
Uçulan divarların,
Yoxa çıxan evlərin
Daşı-qalağı deyir.

Solubdu, soluxubdu,
Yurd olmaqdan çıxıbdı,
Nə qədər darıxıbdı:
Haradaydın axı! – deyir.

O kənd mənim kəndimdi,
Qıfılımdı, bəndimdi,
Torpaq kimi andımdı –
Kəndin uşağı deyir.

***

Səni çox axtarmışam gördüyüm hər addımda,
Elə bil qeyb olmuşdun bu dağılmış yuvamda...

Bəlkə də gizlənmisən bir kitabın içində,
Bu lal olmuş qələmin dilinin lap ucunda.

Bir şairin səsindən çıxmısan həzin-həzin,
Qəlbinə yol çəkmisən gözlərindən o qızın.

Bəlkə nəfəs olmusan yel gətirib min kərə,
Şəhərin nə fərqi var, – Bakı, Şəki, Ankara.

Mavi libas geymisən dənizlərin dəbində,
Damcı olub susmusan gözümün lap dibində.

Bir az nəğmə səsində, bir az yel nəfəsində,
Bir az quş qanadında, bir az eşq həvəsində.

Mən səni çox gəzmişəm, eh, hələ bu harası?
Gəl də ağ günə çıxaq, ay gözümün qarası!

İndi sənin adınla Günəş doğur, Ay doğur,
Bir zəng gəldi... Bilirəm, taledi, məni yığır.

## YENİ ŞEİRLƏRİM VAR SƏNƏ

Yeni şeirlərim var sənə,
Dünən bir uşaq
əlində pozan –
Qoy, gözünün yaşını silim, – dedi.

Gecə saat 10 radələrində
bir avtomobil qəzaya uğrayıb
aeroport yolunda...
yanında sərnişin də vardı,
nicat idi adı...
Eşitdim, ürəyim çatdadı.

Bu gün havam yaxşı olacaq,
efirdə gördüm səni.
Ümid var da bağlandı...

Sabah
mən olmayacam...
Bu gün də gecdi...
Görüşməyənədək!

## “XATİRƏ KİTABI”NA

*İtkin düşənlərə, əsir və girov götürülənlərə*

Hələ də yol gözləyirlər,
gözü yol çəkən ümidlər yaşayır...
Üzü köz kimi qırmızı kitabın içi
yazılmayan qara kağızlarla dolu –
yanır için-için...
Ünvanı bu kitab neçə min itkinin…

Bir Ümid gördüm o gün,
kitaba zillənmiş gözləri “qardaş” deyirdi.
Yadından çıxmışdı adı:
– Ənvər, ürəyimiz daş olub, – deyirdi.
Sürüşdü bir damla göz yaşı,
sızıldatdı kitabın itkin yaddaşını...

Titrəyən əllərindəki salam –
“balam, balam!” deyirdi,
nisgili 27 yaşlı qadının...
Bağrına basdı kitabı, sığmadı qucağına –
itkinlərin, girovların, əsirlərin tükənən tabı.

A-dan Z-yə düzülüb adlar
latın əlifbasıyla.
Bəlkə bir gün oyanacaqlar
AZan səsiylə...
Kirili oxumuşdular,
onların qaldığı zaman
kirilli yollar, kirli dayanacaqlar idi.
Bəlkə də bir gün gələcək,
gələcəklər...

Qırmızı kitab unutmamışdı heç kimi –
qardaş, bacı, nənə, baba, əmi, dayı...
Hələ də yolunu gözləyirlər:
– Qayıt, bala, qayıt!

Hələ də yolunu gözləyirəm,
itkin düşmüş,
əsir, girov götürülmüş
Soydaşım,
yeni ünvanın mübarək!
Qonağınam, aç qapını,
basıram düyməleri:
3, 8, 8, 8...
sonsuzluq rəqəmli – nisgilli eskiz.

Ədəd kimi nə çoxsunuz!?
Azaltmaq istədim sizi rəqəm-rəqəm,
azalarmı bu dərd, bu qəm, nə deyim...

"Ümid qapısı" kimi açdım kitabı,
açdım və saxladım...
Və...
"Vətən sağ olsun" deyib,
hər şeyi cızıq-cızıq
alın yazısına bağladım.

## ELƏ ŞİRİN SUSMUSAN

Elə şirin susmusan,
oyatmaq istəmirəm.
Acıyla doğmalaşdım,
Oy, atmaq istəmirəm...

Dünya, sənin üzündən
közərən atəşim var.
Bağlama gözlərini,
gör nə qədər işim var!

Səni sevmək, ay canım,
canımdan ağır yükdü...
Ən böyük günahdan da
yenə Allah böyükdür...

Kimin üçün qalanır
ürəyimdə ocaqlar?
Ayağına gəlmişəm,
Dur, boynumu qucaqla.

## ƏN ÇOX ONA YANDIM....

*Türkiyədə 2021-ci ilin iyulunda baş verən yanğınlara*

Məsafəli qaldığımız günlər idi…
Amma ağaclar qol-boyun, meşələr azad,
Yavrusunu doğaya alışdıran heyvanlar
azaddı,
Azad idi keçi-qoyun...
Dimdik-dimdiyə idi dəstəylə uçuşan quşlar…
Nə qədər gözəl idi doğuşlar…

Azadlığın dadı vardı təbiətdə:
Meyvələri salxım-salxım ağırlaşan budaqlar,
ballanan dallar,
Erkəkciyi dişiciyiylə öpüşən çiçəklər,
açılan güllər,
doğan günəşin işığına gülümsəmələr...

Yayın ən isti zamanı
nəfəs aldığımız ormanlar,
mutlu bir təbiət düşünün...
və bu gözəlliklərə bir anda od düşməsini...

Heyif oldu ağacların, quşların,
heyvanların əməyinə,
yazıq oldu yaradılanlara...

Od düşdü hər yerə:
kiminin evi-eyvanı,
kiminin heyvanı,
kiminin zəhməti yandı,
kiminin əməyi, kiminin canı,
kiminin də ürəyi...

Yandı fidan-fidan nəfəslər,
alışdı ağaclar, təlaşlandı heyvanlar,
canlıların canı yandı...
dördayaqlı ikicanlı heyvanların qarnı yandı,
otlar yanınca...

Allahım!
Bir ana quş qanadlarını
yumurtalarının üstünə sərmiş –
içində balaları varmış,
hamısı yanmış…

Mən də
ən çox ona yandım,
Ana quşun yanmasına...

## BANUÇİÇƏK

*Partlayışda həlak olan 3 yaşlı qızcığaza ithaf*

Üç yaşlı ömründə cənnət qoxusu,
dodağında süd...

İndi-indi tanıyırdı yeri qoğal ayaqların,
şirin əllərin oyuncaqları,
Nur içində üzən
balıq gözlərin dünyanı,
indi tanıyırdı,
sökülən dan yerini qan rəngində yanaqların...

Bəlkə, bu dünyanın
ən dadlı yavrusuydun sən!
Bəs niyə səni belə
acımadan uddu zalım alovlar?
Zalım Alovlar!!!

Sən tək getdin...
Atan yandı, anan yandı...
Bu xəbəri eşidəndə halınıza yanan yandı.

Bəlkə də, ananın əllərindən tutan
son umuddun...
Unutdunmu yavru, unutdun!

Yeddi gün çəkdi
durduğun yolayrıcında ata gözləyişin,
Gəldi atan da...
Hamsi balığı gözlərindəki
nigaran baxışın yenə getmədi...
Kimi gözləyirsən, yavru mələk?

Dörd gün də keçdi...
Gəldi anan da,
oda yanan da:
– Tut əlimizdən, gedək,
Banuçiçək!

Sən dünyanın ən dadlı yavrusuydun,
İndisə cənnətin...
Bir də bu dünyaya gələrsənmi?
Çətin,
Çətin...

## MƏNİM SAATIMLA BAŞLAR GÜNÜMÜZ

Çöldəki pişiklərin uşaq kimi ağlaması,
ağlıma gəlməyən işlər,
pozur qaranlığı…
Uzaqlarda meşə yanğını,
yanğınlarda boğulan canlıları hiss edirəm
və yananların qara tüstüsünü...

Gözlərimin duzlu yaşı,
bu yaşımda güzgüdəki gözlərim,
örtür bir istəyin üstünü və yuxuya gedirəm,
Elə yatıram,
elə bil bir daha oyanmayacağam...

Mənim saatımla başlayır günümüz,
günün ən gözəl vaxtıdır sənin yazdığın vaxt,
o da duzlu...
Silinən bütün mesajlara cavab verirəm,
işarələr də nazlı...

Yoluna qoyduğum almanı qoxulayıb öpmüsən,
sonra yemisən.
Demisən, mənim əllərimlə başlayıb hər şey,
ovcumun içindəki xətlərdən
öyrənmisən xiromantiyanı...

Bir də küçələrdəki yiyəsiz itlərdən nigaransan –
bunu da demisən.

Sonra həyat bir ədayla bağlayır bu kitabı,
bağlayıcı və nidayla yazılır ömrümüzün
dəftəri:
Mən və Sən... indi də o!

Nə bilim,
bəlkə də haqlısan!

## ATAM

Atam
Anamdan əvvəl gəlib dünyaya,
Anamdan sonra evləndi...
Əvvəllə sonun arasındakı ömür
sıxdı onu.
Bir az həyatdan gördüyü amansızlıq,
bir az anamsızlıq qatıldı bu ömrün gözünə.
Qarışdı dünyası,
qızının toyu,qadınının yası...

Bu köhnə sovet adamının
cibindəki kommunistliyinin
təzyiqi vurdu ürəyini.
Haqqın dalınca getdi,
baxmadı təzyiqlərə.

Bakıdan Moskvaya,
Gəncədən Leninqrada,
sıxdı onu ora da,
bura da...

Məktublar göndərdi
düzdə qalan düzə.
Qışdan yaya uzun illər
məktublara bükülüb çıxdı.
Əynim-başım olmayanda
ürəyi od tutub yandı.
Almadığı geyimim
gecələri bəyaz Leninqradın
asılqanlarında təzə qaldı.

Bəyaz gecəli şəhərdən,
Gecə gözlü kəndə döndü,
ağ-qara ömürlə birgə...
Ağac əkdi, düşmən çəpəri çəkdi –
oğul-qız böyütdü, saç ağartdı.
Əllərinin qabarıyla öpdü torpağı,
ev qurdu...
Adını tutduğu dünya,
atdı onu...
Qaldırdığı evi, saldığı yurdu,
bölgə qarışıq satdılar...
böldülər insanları:
ölməlisi, qalmalısı...

Atam anamdan əvvəl
gəlib dünyaya...
Hərdən nənəm deyir ki,
"Elə bil heç balam yoxuymuş".
Nənəm bilmir ki, anam var.
Yuxusuz qaldığım gecələr
anamla doludur.
Saçlarımda açan Ağ güllər
anamla doludu...
Ürəyimin içi anamla doludu.
İçin-için
anamı dünyaya gətirmək istəyirəm.

Qəbirlər içrə tənha məzar var,
içi anamla doludu.
Üstünü götürüb atam,
hər gün su tökür ora,
Anam ayılmaz...
Anam bir də məni doğmaz,
doğmaz,
doğmaz...

***

Biz sovet uşaqlarıydıq:
kollektiv ağzımız,
gilas-gilas gözlərimiz,
“klas-klas” oyunumuz,
şirin-şirin yuxumuz,
qırmızı qalstuklu boğazımız,
Lenin başlı yaxamız,
mürəkkəb qələmlər üzündən
kirli və kirilli barmaqlarımız,
bir də,
qələmi əski əlifbalı ulu babalarımız vardı.

Pərdə çəkilmişdi on səkkiz-iyirminci
illərin üzünə qələmlə,
pozanın əllərini,
əllərin pozanını gecəylə kəsirdilər:
nə qırmızı qan görünərdi,
nə də ağ yalan.

Kəsr ədədiydi Sovetlər
on beşdə bir, birdə on beş...
Bir-bir dağıldı oğrun-oğrun,
birdən on beşə doğru...

Kommunist atamız,
ateist müəllimimiz,
pioner adımız,
komsomol qardaşımız vardı.

"Komsomolun canı it canıdır" deyən
filmləri izləyirdik.
Gözləyirdik Turan sevgimizin cücərməsini,
bəy-xan nəslimizi gizləyirdik...

Sovetin hər rəngini görmüşdük:
qırmızı pasportunu,
boz şəhərlərini,
Qızıl Ordusunu,
qara geyimlilərini...

Oraq-çəkic çəkərdik
bayraqların al yanaqlarına.
Sonra,
ömrünü oraqladıq sovetin...
Meydanlarda çəkici bir sindana vurmaqdan
dağıtdıq zindanları ağır-ağır...

Biz qırmızı sovet uşaqlarıydıq –
göyərçin rəngli azadlıq gələnə qədər.

Azadlıq yenidən doğdu bizi,
indi onun ağ əllərindən tutub,
dördəlli yapışmışıq üçrəngli
bayrağımızdan.
Yüz ildir yaşayırmış bu Bayraq aramızda,
aramızda qalsın!

## ANAMA YAZDIĞIM ŞEİR

Gedirsən gəlməməyə,
ay mənim gəlməyənim!
Bir can borc aparırsan
fələyə gülməyənim!
Borcunu ələ verdin...

Gözü çıxdı torpağın,
kor oldu, qıydı sənə,
ya acıxdı, torpağın
dilimi dəydi sənə,
borcunu dilə verdin!?

Altun saçlı mələyim,
sən məni bələmişdin,
mən də səni bələdim,
bələdim ağ kəfənə,
borcumu belə verdim?

## YAĞMASIN YAĞIŞ

Yağmasın yağış bu şəhərə,
almasın səni məndən...
Su keçirir ayaqqabılarım,
gözlərim cərəyan...

Boğuluram incə-incə yağış yağarkən
dərinliyimdə...
çıxar məni...

Yenə üzümün bitdiyi yerdən
başlayır nəbzim...
Baxışların taxılı barmaqlarıma,
altun-altun...
Daha çox baxıram əllərimə indi...
Dada bilmir dodaqlarım
nəfəsindəki yalan qoxusunu...
Yarıaçıq gözlərim dürrü-yetim,
qəvvasım ola bilmədin.
Qara göz bəbəklərimi
boynuna taxacaqdım...

## ÜRƏYİM SƏNİ YIĞIR

Bir ömür çözələnir,
Bir yumaq yunu yığır.
Allah iş bölüşdürüb,
Əzrayıl canı yığır.

Söz tutub məni çəkir,
Hər sözün qanı çəkir,
Tanrı naz-nemət tökür,
Saçlarım dəni yığır.

Hər ömürdən qış keçir,
Hər baş üstdən daş keçir,
Mən keçməzdim, yaş keçir,
Ömürdü – günü yığır...

Xəbər gəlir olandan,
Əvvəlim bəlli sondan,
Asılıb telefondan,
Taledi, məni yığır.

Gözlərimdə çimirsən,
Necə oldu demirsən.
Ürəyimə damırsan,
Ürəyim səni yığır.

# PANDEMİYA ŞEİRLƏRİ

### *#EvdeQal*

Bu gündən evdə qal,
günlərdən cümə...
Aç gözlərini,
oxu kitabları,
aç cümlələri!
O gəldi ki,
cümləmizin başına gələnləri
görəsən –
indi mübtədamız o (koronavirus),
xəbərimiz də o.
Ölən var, qalan var,
Sən də evdə qal!

Günlərdən şənbə...
Özünü və gözünü götür evdən
düşəndə,
eynəyini tax, amma gözüaçıq ol,
maskanı gey, əlcəyini gey,
telefona bax,
məsafə saxla məsafə tanımayan
insanlarla...
Vaxtın bitdimi, geri dönəcəksən,
onsuz da,
evdə qal!

Günlərdən bazar...
#Evdə qal və tanı
Covid-19 adlı azar dolaşır dünyanı...
Sən elə bilirdin ki,
yalnız ətli-qanlı olur düşmən,
canlı olur düşmən?
Cəsədləri gördünmü, evdə qal!

Hazırlaş, günlərdən bazar ertəsi:
Ölən var, infarktdan amma,
dönən var –
çıxır evdə qalmaq yaraşmayan
acların səsi...
– Evdə qal,
sənə də düşəcək,
Tanrının yardım tikəsi.

Günlərdən ikinci gün –
çərşənbə axşamı,
Karantində beşinci,
Siz heç belə bir tonqallı gün
gördünüzmü!?
Hardasa uzaqlarda yandırılır cəsədlər,
bağlanıb sərhədlər,
#evdə qal!

Günlərdən çərşənbə,
Bir film izlə tarixi,
tarixi izlə,
xəbərdən aralan,
ondan uzaq dur!
bir muzeyi səyahət et virtual,
#evdə qal!

Günlərdən cümə axşamı,
Aç bağladığın qapıları, Tanrım!
Səndən uzaq qalanlara
bir məktub yazdır,
qara düymələr üzərində
bəyaz
barmaqlarla: #evdeqal
#nigaran qalma,
#ürəyimdəsən...
#ölümsüz bir sevda qal,
Tanrım!

## *Karantində qal indi*

Yenə könlümə düşdün,
Varmı başqa yol indi?
Qəlbimin köşəsində
Karantində qal indi!

Gecə-gündüz darıxma,
Sənə nə fərq edər ki!
Getmisən, yerdə qalan
Sənsizlik o qədər ki!

Hava gözəl, ağaclar
Çiçəklərlə bəzənir,
Yenə havalı gəl ki,
Əfv edə bilim səni.

Tanrının istədiyi
Olurmuş əvvəl-axır...
Elə bil Yer üzü də
Sənin üçün darıxır.

Çıxarıram yadımdan
Adını baş hərfiylə,
Sənə məktub yazmışam
Dolub zaman zərfiylə.

## *Koronaviruslu Bakım*

Diyar-diyar gəzdi
bəxtiyar insanlar və şəhərlər arasında,
Sənə də qıydı, Bakım!

Küçələrini yudu-sərdi Günəşə,
eyvanlardan asıldı insanlar,
çəkildi adamlar,
ağır gəldi zaman...
Küçələr quşların, otların,
daşların oldu.
Boğazından tutduğunu
atdı atəşə...

Nə gəldi sənə, Bakım!
üzüldün içindən,
sənə gələn mənə də gəldi,
özü də Çindən...

Daha gendən dur, oxucum!
Səsimdən öpmə,
hərflərə toxunma,
oxuma bu şeiri, oxuma,
virus sənə də keçər...
Keçər, Bakım, keçər!...

## GƏLİN KÖÇƏN QIZ

Xınalı əllərin əlcəkdə,
gözlərin yolda,
gəlinlik gözləyir səni gələcəkdə...
Vağzalı sədasına köklədin taleyini,
Arzuların nə kökdəydi bəs,
Gəlin köçən qız?!

Çırağın başına fırlan,
Quranın altından keç,
Bu evdən ağ duvaqda çıx,
"Günün ağ olsun" – dedilər,
yolun açıq...
Vağzalı sədası altında
kim ağladı, kim?
Belini kim bağladı bəs,
Gəlin köçən qız?!

Uzun-uzadı vağzalı,
Aram-aram yollar,
Həzin-həzin yerişin...
Zaman nə ahəngdəydi bəs,
Gəlin köçən qız?!

Ağappaq gəlinliyin,
Qapqara saçların,
Qıpqırmızı bel bağın,
Bəxtin nə rəngdəydi bəs,
Gəlin köçən qız?!

## YAZILMAYAN ŞEİR

Əvvəl ömrü boyu çəkə bilməyəcəyi
bir rəsmin önündə quruyub qaldı
saçlarının ucunacan...
qurutdu onu rəssam əlindən süzülən rənglər,
sonra... narın-narın yağan yağış islatdı.
Addım-addım uzaqlaşdı o rəsmdən.

Bu heyrətdən ayılmamış sevdiyi gənci
heç zaman yerinə olmayacağı
bir qızla gördü,
küçəni keçən zaman.
O cütlər gözdən itənəcən,
o yağış kəsənəcən,
quruyub qaldı yerindəcə.

Keçdi küçədən,
Keçdi yağışdan,
Keçdi sevgidən.

Duymadı bunu "Torqovı"nın insan əlindən
təngə gəlmiş o dar küçəsi də.

Heç zaman geyinə bilməyəcəyi
bir geyim önündə
ayaq saxlayıb içəri keçdi.

Ürəksiz maniken qürrələnirdi
əynindəki geyimin zövqü altında.
“More exspensive” deyib eşiyə çıxdı.
Küçələr daşa dönmüşdü,
Evlər yaş daşa dönmüşdü,
Ayağının altındakı daş daşa dönmüşdü.

Ayaqlarını torpağa əmanət vermiş bir
qəhrəman,
duymadı daşların daşa dönməyini...
əl açdı iki ayaqlılara –
ürəklər daşa dönmüşdü!!!

Bundan sonra
qaçmaq istədi gördüklərindən.
Qaçdı, qaçdı, qaçdı, qaçdı o küçədən...
Elə qaçdı ki, heç kölgəsi də çata bilmədi ona.
Nə qədər qaçsa da, nə o rəsm,
nə o gənc, nə o geyim, nə də o qəhrəmandan
uzaqlaşa bilmədi.
Heç kəsin yaza bilməyəcəyi
bu şeiri yazdı o gün...

## QOCALIB ATAM

Əlləri, gözləri, saçları qocalıb,
Əlində qələmi, suçları qocalıb...

Dünəni, bu günü, sabahı dəftərdə,
Saralır, varağın ucları qocalıb.

Nə vaxtdır əyninə gen gəlir geyimlər,
Dolabdan asılı dəstləri qocalıb.

Gəlirlər, keçirlər bir-bir bu qapıdan,
Atama baş çəkən dostları qocalıb.

Danışır, dağılır sözündən hərflər,
Vurğusu, duyğusu, sədası qocalıb.

Üzündən oxunur, gözləri dopdolu,
Qəlbində anama sevdası qocalıb...

Qocalıb – atasız, anasız qocalıb,
Qocalıb, qocalıb, anamsız qocalıb.

## NƏNƏM VƏ BABAM

*Tovuz nənəm və Qoca babama ithaf*

Qoğal qoxusu vardı nənəmin –
saçlarını ağartıyla,
yumurtayla yuduğundan,
Doğal qoxusu vardı babamın,
heyvanları sevdiyindən,
duyduğundan...

İpək kimiydi əlləri,
barama qurduna bənzəyən
barmaqlarıyla
papaq toxuyardı bizə nənəm...

Yağ içində qayğanaq sevərdi,
üstünün balıyla,
şirin idi dilləri:
"Düşər mənə bir qayğanaq,
Gözəl, bəri bax, bax" deyərdi babam...
Bir də xəşili sevərdi,
ən üsullu birimizin yaramazlığı
"xəşil də daşarmış" dedizdirərdi ona.

Qızı olmayıb nənəmin-babamın.
Üç oğlu olub...
Böyükdən biz olmuşuq,
üç qız olmuşuq...
Oğul qoxusu vardı nənəmin...

Nənəm çox sevərdi bizi,
evimizi, kəndimizi...
Sözünə baxmayanda da,
“sığalla” sevərdi bizi –
deyərdi ki, “nənə əli yastıq olar,
silləsi də sığal kimidir”.
Sığal qoxusu vardı nənəmin.

93-də köç başladı...

Şüşə gözlü bulaqların
bumbuz suyuna həsrətdən üşüdü,
nənəmin dəmir biləkli səhəngi...
Aranın köç vaxtı gələndə
gözü yol çəkdi babamın,
dəyişdi yaşamının ahəngi...

Yaylaqların döşündə tikilən
domba-domba komalar
çubuq-çubuq yandırıldı
qaçqın çadırlarında...
Yamaclarının qaymaqçiçəyi rənginin
ətri gəlirdi nənəmdən
dağların dağ çiçəyinin.
Dağlar qoxusu vardı nənəmin...

Dəvəgözlü bulaqlarına
cangüdənlik edirdi
şiş qayalar...
Onlara kürəyini dayamışdı babam da...
Babam sağkən getdi o yaylaqlar.

Babam da soldu yavaş-yavaş.
Bu torpağa baş qoydu, baş...
Babam getdi, nənəm qaldı...

Nənəm
yaylaqların xınalı daşlarını
yaddaşında daşıdı,
unutmadı heç nəyi:
hekayələr danışdı bizə,
Nağıl qoxusu vardı nənəmin...

Bir gün o da vuruldu sinəsindən,
hiss etdik səsindən,
nənəm də getdi...

İndi mən onları içimdə
və də kitabımda daşıyıram...
Çoxdandır, çoxdan –
nənəmsiz-babamsız yaşayıram.

Doğal qoxusu vardı,
Oğul qoxusu vardı,
Qoğal qoxusu vardı,
Sığal qoxusu vardı,
Nağıl qoxusu vardı –
nənəmdə və babamda,
Dağların qoxusu vardı...

## QURBANAM

Ana torpaq gözəllərin gözəli,
Bu gözəlin laylasına qurbanam.
Göygöl kimi, Maralgöl tək qızların,
Xəzər kimi anasına qurbanam.

Nələr varmış bu fələyin oynunda,
Qara qızıl xəzinədir qoynunda,
Meşələri boyunbağı boynunda,
Dağılmayan danəsinə qurbanam.

Doqquz iqlim gözəlliyi üzündə,
Min bir dərdin dərmanı var düzündə,
Dəli Xəzər elə gülür gözündən,
Mavi gözlü aynasına qurbanam.

Başım üstdən gilavarlar əsməsin,
Araz coşub yollarımı kəsməsin,
Bu torpağın gözəlləri küsməsin,
Vətən adlı sonasına qurbanam.

## ÇÖL ADAMININ QEYDLƏRİ

Axşamın soyuğunda
nə gəldi ürəyinə?
Nə getdi bu gecədən,
nə pis darıxdım, Allah!

Gəldi, yadına düşdü
yağışa düşməyiniz:
bir quru candan başqa
nəyiniz vardı, nəyiniz?
Çətiriniz belə, yox idi bu şəhərdə...

Bir az da ondan əvvəl
erməmidən qalma
bir mənziliniz vardı
bu şəhərdə...
Amma, xətirli-hörmətli adamlar
aldılar əlinizdən,
yenə evsiz qaldınız...
Biri vardı, hamı vardı, sən var idin,
anan vardı...

Lap bir az da ondan əvvəl,
Gecəgözlü kəndiniz vardı:
gözləri kömür rəngində
Toplan adlı itiniz vardı...
Evinizin dupduru pəncərə gözləri
kömür rənginə dönüb,
siz toplanıb çıxandan gecə köçüb içinə.

Lap bir az ondan da əvvəl
heç sən də yox idin.
Atan-anan vardı,
erməni-urus vardı,
evinizi erməni ustası tikmişdi,
elə onlar da yıxdılar...

Lap əvvəldən də əvvəl isə,
Allah vardı...
İndi Allahsızlar çoxdu,
indi heç nəyin yoxdursa da
başın üstə Allah var.

Sən Allah adamısan,
Sən çöl adamısan,
Sən ev adamı deyilsən.

Çöldə darıxdın, yolda darıxdın,
bir az da evdə qaldın,
evdə darıxdın.

Atan deyərdi ki,
“qızlarımın evdarı sənsən”.
İndi sən ev adamı deyilsən...

## DAYANIRAM MƏN

Bel bağlamaram köçə,
Bir karvan ümid keçə,
Öz içimdəki gücə
Dayanıram mən.

Çağla, bulaq, səngimə,
Yığıram səhəngimə.
Dolduqca söz renginə
Boyanıram mən.

Yaratmışdım özümdən,
Gördüm, düşdü gözümdən,
Dünyanın o üzündən
Oyanıram mən.

Dərd ölüb, ili çıxmır,
Arzumun gülü çıxmır.
Alovum külə çıxmır
Ha yanıram mən.

## PLAZMA

Gecəni gözləyirəm...
Qaranlığın içində böyüsün bəbəklərim.
Gecəni gözləyirəm,
işıqlı fikirləri itirmişəm gecədən.
Əlimdən heç nə gəlmir,
hərdən yuxusu gəlir
böyümüş bəbəklərin.

Siz, ey səhərdə olanlar,
Siz, ey şəhərdə olanlar!
Gecəyə yığılanda
işıqlı fikirləri yandırmağı
unutmayın!
Azarsınız,
çəkisiz fikirləri çəkməyi unudun!

Yox olmur fikir unudulanda,
başqa hala keçir,
fikrin qəti və qatı halından buxar halına.
Buxar görünmür axı...
Fikrində mən də varam,
unudulsam gözünə görünmərəm,
yadında saxla.

Gecəni gözləyirəm...
İşıqgələnə yüyürməkçün,
yana-yana şeir gəlir
fikrin plazma halında.

## SUALSAN – TAPA BİLMƏDİYİM

Yaxşı yadımdadı –
orucumu göz yaşımla açdığım gün...
Samovarın sızıltısı salır yadıma,
qaynadıqca üşüdürdü məni.

Yaxşı yadımdadı, Quran oxuduğum gün,
aylardan Ramazan –
ağzım oruc, əlim kitablı, dilim quranlı
Opera və Balet Teatrında "itdiyim" gün idi.
Sonradan tapdım özümü
Quran oxuyarkən.

Bismillah-ir-rəhman-ir-rəhim,
xoşuma gəlir səsin sən Quran oxuyanda.
Gözəl alınır səndə boğaz samitləri –
"ayn" da, "ğayn" da...
Boğazın əlif, burnun ləm, qaşların
təşdid, gözlərin hə yazıb,
məncə, sən hülulsan...

Xoşuma gəlir üzün
başında kəlağayı sən Quran oxuyanda.
Kəlağayı örtür gecəni, doğur ayı.
Bismillah-ir-rəhman-ir-rəhim,
yəəəsin, vəl-quranil-həkim...
Ey insan, baxıram yandan,
nur saçır simmetrik üzünün bu tayı,
elə bil ki, hilalsan...

İnanmağım gəlir tənasühə –
ruhun ölməyib
bir bədəndən başqasına keçməsinə...

Xoşuma gəlir nəfəsin,
hər sözə ruh verirsən,
sən Quran oxuyanda.
Aldığın nəfəs halal,
verdiyin nəfəs halal,
bilirəm ki, sən halalsan...

Xoşuma gəlirsən,
cavabını tapa bilmədiyim
sualsan.

## HADİSƏ

Kötük ömrün
vücudunda bardaş qurub,
qardaş olmusan dərdlə.
Öldürdüyün anların
itkisindən xəbər gəlib qaça-qaça...
İnsanın fiziki ölçülərini
çoxdan keçmisən, Qoca!
Sən təbiət hadisəsisən.

Ocaq yeri kül saçların,
gözlərin kül altından
işaran köz,
çıxır tüstün, damağında qəlyan,
yanmısan Qoca, yanmısan!
Sən kimyəvi hadisəsən...

Kökün üstə bitdin, kötük,
İllər kötəklədi səni.
Budandı budaqların...
Allah müharibə çıxardanın
qollarını qırsın!
Sən cəmiyyət hadisəsisən, Qoca!

İtirdik bir gün səni də,
Tarixi hadisəsən, Qoca!
İtirdik səni,
heç bir hadisə baş vermir daha.

# KÖRPƏM

Keçmişlə gələcəyin arasında
gözləyirəm səni,
sən yoxsan...
Arzularım var,
varım-yoxum var,
Sən yoxsan, yox.

Ətrin gəlir
nəfəsini içinə çəkmiş divarlarımdan,
səsin yaşayır otağımın sükutunda,
mışıl-mışıl yatırsan:
– İkisi var imiş, biri yox imiş.

Yer tapa bilmirəm özümə,
göylə yer arasında,
sənsizlik sıxır məni...
Məkanım, zamanım bəlli,
həmişə bu gündəyəm –
keçmişlə gələcəyin arasında.

Elə gözəlsən,
gözüm qamaşır çilçırağa baxdıqca...
Tələsirəm vaxtım azaldıqca,
Sənin də
vaxtsız gələcəyini bilirəm,
sən yoxsan...

Özündən əvvəl gələn adın var,
yolunu gözləyən qadın var –
mən varam, atan var...
Sən yoxsan.

Burnumda qoxun,
əllərimdə sığalım darıxır.
Bəsdi yolunu gözlədiyim,
bəsdi daha gəlmədiyin,
bəsimdi, hər şey bəsimdi...

Keçmişlə gələcəyin arasında
gözləyirəm səni,
sən yoxsan,
Gələcəkmisən?

## LİRİK ŞEİR

Dedin, səni sevindirim,
dedim, necə?
Dedin, ölüb bu dünyadan köçə-köçə...

– İcazə ver gözlərini qəbir seçim,
O yol çəkən gözlərinə dolum, keçim...

Dedim, itirərəm səni
gözlərimə dolsan əgər.
Səni sənsiz ağlayanda
gözlərimdə olsan əgər.
İtirərəm ən qiymətli inci kimi,
İtirərəm gözümün sevinci kimi...

Dedin, onda icazə ver saçlarında ağa dönüm,
Gecə kimi qara teldə bir yanar çırağa dönüm.
Dedim, itirərəm səni qara tellər ağaranda,
ağır olar mənə, ağır, səni belə axtaranda.

Dedin, bəlkə ürəyinə dolum sənin?
Susdum, susdum,
söz tapmadım....

## GÖZLƏRİM FİLM ÇƏKİR

Daşın nəfəsi tıncıxır,
İsti qarsıyır küçəni.
Günəşdə bişmiş kərpiclər,
Gözləyir uzun gecəni.

Durub xatirə önümdə,
Gözlərim bir film çəkir,
İlğıma düşmüş kimiyəm,
Hər yerimdən yalan çəkir.

Hər şeyi atmaq istəsəm
Əlimdən çıxıb gedərmi?
Şəklini çəkdiyim fikir
Canımı sıxıb, gedərmi?...

Dualar bitib-tükənmir,
Əllərim asılı qalıb.
İncitdiyim xatirələr
Mənimlə küsülü qalıb.

***

Deyirəm ki, səni necə çağırım,
məni eşidəsən,
aramızda min illik məsafə varsa...

Deyirəm ki,
səni necə çıxarım qaranlığından,
içində nur yoxsa!

Səni necə gəzim, iki gözüm,
gözümün yerində,
yuxusansa...

Səndən necə əl çəkim,
əllərin əlimdəsənsə...

Deyirəm ki,
götür get uzaqlığını,
götür get qaranlığını,
gözlərini, əllərini verim, get,
varım get, yoxum get!

Dayan,
ürəyini unutma.

## BU YAZ DA CÜCƏRMƏDİ

Qapqara gecələrdə
dən-dən ağaran saçların,
sulu gözlərin,
dərin fikirlərin,
bu yaz da cücərmədi.

Dualara açılan əllərin,
yarpaq-yarpaq barmaqların,
çiçək-çiçək diləklərin,
bu yaz da göyərmədi.

Dibçəyinə əkilən toxum,
bu yaz da meyvə vermədi.

Sevgin
bu yaz da bətnini doyurmadı...

***

Bəxt göləndə qayıq ola,
Avarçısı ayıq ola.
Gərək bəxt də layiq ola
adımıza.

İlbəil ömür uzanar,
Kim uduzar, kim qazanar...
Nə qədər kədər qızınar
odumuza...

Gəl, ömür daşını daşı,
Daşın gün-gün yaxınlaşır...
Hər gün yarpaq-yarpaq düşür
yadımıza...

Düşməz Yerə bircə ah da,
Ölürük, qalırıq gahdan.
Yetməyir daha Allah da
dadımıza.

## GÜL KİMİ GÜLLƏ

Qələm rəngli bənövşəm,
Ürəyinə söz yazacaq.
Baxıb qara gözlərinə
Ağ əllərim "biz" yazacaq.
Sənə gül gətirmişəm,
sözünü güllə kəsirəm,
gül kimi güllə...

Qırılır səsin...
Cəllad əliylə dərilmiş
çiçəklərə vurulur səsin.
Sözünün başı düşür
çiçəklərin ayaqları altına.
Başsız atlı kimi fikrin
baş alıb gedir...
Xəyal götürüb qaçıran
qara gözünü yaş tutur...

İllər ötür, qocalırıq,
sonra gözünü yaş tutur.
Yaşını güllə kəsirəm,
gül kimi güllə,
sənə gül gətirmişəm.

## ÖLÜM MƏNDƏN ƏLİN ÜZÜR

Qələm dolu, ürəyim boş,
Qələm mənnən əlin üzür.
Könlünə yatmadım deyə,
Ələm mənnən əlin üzür.

Fikirli gəzir əllərim,
Əlimdən bezir əllərim,
Qəbrimi qazır əllərim,
Əlim mənnən əlin üzür.

Fikir çəkir qələm indi,
Bu fikirnən gələm indi,
Gözləmir ki, öləm indi,
Ölüm mənnən əlin üzür.

## YOX OLMUŞ EVİMİZ

İşığı sönmüşdü kəndin-kəsəyin,
Anamdan aldığın şam yadındamı?
Sən utancaq rəssam, mən də biləyən,
Çəkdiyin bilinməz qəm yadındamı?

Dəyəndə tutumuz yalı aşardın,
Evin ətrafına hey dolaşardın,
Tut yığıb yeyərdim, sən də şişərdin,
Salıb sındırdığım cam yadındamı?

Elə ki yaz gəldi göyərərdi kənd,
Bal kimi dadardı çörək ilə qənd,
Qəfil gözlərinlə atıb bir kəmənd
Yaddaşa aldığın an, yadındamı?...

İllər keçdi
Və azad oldu torpaqlar...

Alındı kəndimiz, yanıb duru çay,
Torpağı çatlamış durur quru çay...
Çərəkən boyunca o tay və bu tay
Yox olmuş... Evimiz, can, yadındamı,
Daş-qalağa dönüb, tam yadındamı?

## ATV

*(2013-cü ildə ATV telekanalına yazılan şeir)*

Hər gün sənə baxıram,
gözümün nuru kadr arxasında qalıb...

Gözü götürməyənlər
pultu götürüb, kanalı dəyişib...

Hər gün sənə baxıram, içimi tapdalayırsan...
Gözlərimi görmürsən,
əllərimi öpmürsən heç...

Özünə inanmayanlar atılıb-düşür hər gün...
Nə çəkdiyini bilirəm,
kameralar qədər...

Akustikanı qulağıma taxdım
sırğa yerinə...
vizuallığını gözümə eynək etdim.

Evimin içi,
işim-gücüm sənsən,
neçə ildir sənə baxıram ki, yaşayasan...

Dünyanı çəkə-çəkə evimə gətirdin...
“ATV dünya” yaratdın.

Həftə içi baş verənlər
həftə sonu Vaqif Aydınoğluyla
gəlir evimizə...
Peşəkarsan...
Mənim də işim-peşəm qurtarıb,
sənə baxıram.
Noolsun ki, sən məni görmürsən,
Açımmı gözlərini cərrah qələmimlə?

Səhər yerimdən durandan
marafon yürüşünə başlayıram,
Turan yerindən də tərpənmir...

Mənsə sənə baxıram...
– Üç gün də "Özünə bax" – deyirsən.
Doğrudan da həyat var burda:
maqazinim də sənsən,
"Şarm"ım da,
bozbaşım da, fəlakətim də Sənsən...
Adının qarşısına epitet tapmaqda acizəm.

O gün kim olduğumu düz üzümə dedin sən.
Mən də öldürdüm özümü,
sənə baxa-baxa...

Gün keçir gündəliklə,
mən səndən keçə bilmirəm...
“10-lar”la gəldin evimə,
onlara da sənə baxdığım kimi baxdım...
Gizli sevgin kimi
gizlədirsən gizli reklamları.

Sən tez-tez dəyişsən də,
mən gözlərimi dəyişmədim,
Gözümün nuru!

## YER ÜZÜNDƏN KEÇİRDİN

Soyuq da sevir səni,
Çıxıb getmir evindən.
Divarların su çəkir,
Bir gül bitmir evində...

Yaz gəlsə ürəyinə,
Bilərmi ayrılıqlar,
Üşüyərmi soyuqlar,
Ölərmi ayrılıqlar?

Bir də gələn yuxunun
Yüyürmə ayağına,
Ürəyindən nə keçir
Dur, köçür varağına.

Oxudun bu həyatı,
Ya üzündən köçürdün?
Qoşulub sətirlərə
Yer üzündən keçirdin.

## ŞUŞADA VURULAN VERTOLYOT

*Qarakənd səmasında vurulan vertolyota*

Ürəyin yandımı, yandımı için,
Odun çıxdımı, çıxdımı ruhun,
Külün qaldımı, qaldımı yadında
vurulmağın,
Şuşada vurulan vertolyot!

“Uşaq” idim onda,
qəşəng idim onda,
Yana-yana düşən sən də qəşəngdin.
Elə baxırdım,
Elə bilirdim fişəngdir,
Şuşada vurulan vertolyot!

Bilirdinmi obyektiv “Xəbərçi”
verəcək vurulmaq xəbərini,
Xəbərin oldumu özündən?
Şuşada vurulan vertolyot!

Çıxdı ruhun plazma halında,
Uçdu uçduğun göylərə.
Ulu göylər,
Yağmurlu, sulu göylər,
Vurğun vertolyotların
Eşqiylə dolu göylər.

Şuşanın dağlarına,
Şuşanın dumanına,
qırmızı koftasına, yaşıl tumanına,
Azad olmaq gümanına,
Şuşaya vurulmuşdu,
Şuşada vurulan vertolyot.

Kərəm olub düymə-düymə
açdın Şuşa sevgini,
yana-yana qaçdın göydən,
qaça-qaça düşdün göydən
alma misalı...

Şuşada vurulan vertolyot,
Mən də bir gün vuruldum
ürəyimdən...

## BU GECƏNİN QAŞI ÇIXIR

Qəm tağında dəyən kəsin,
Yetişmişəm deyən kəsin,
Öz dərdini yeyən kəsin
İçində dərd kişi çıxır.

Gözünə sürmə çəkilmir,
Çiçəyi solur, bükülmür,
Kədəri gəlib tökülmür
Ağlayanda yaşı çıxır.

Qara çarşaba bürünür,
Gözün açmağa ərinir.
Ay doğur, halə görünür,
Bu gecənin qaşı çıxır.

Yenə axırımız birdir,
Son mənzilin işi sirdir,
Torpağın ağzı qəbirdir,
Yeyir, sonra dişi çıxır.

## RƏNGLƏ DUYURAM

Rənglə duyuram yağışı,
göyün üzü qaralanda...
Yağışdan sonrakı
göy qurşağını,
islanmış torpağı, daşı
rəngli qoxusundan duyuram.

Rənglə duyuram ölkələri,
bayraqların libasında –
qırmızısı, sarısı, narıncısı var,
qarası, ağı, mavisi var...
Hərəsi öz obasında.

Rənglə duyuram yaşımızı,
saçımızın bəyazından...

Rənglə duyuram hərəkəti,
Yaşılı çox sevirəm
sükan arxasında.

Rənglə duyuram yolu,
aramızda yollar, rəngli xətlər vardı:
Ciddi-ciddi qoşa xətlər
kişi rəngində, kəsmək olmaz.
Qırıq-qırıq qadın xətti –
Könül kimi...

Küçələrə döşənmiş oxlar –
uşaq xəttidir,
göstərəcək sənə gedəcəyin ünvanı...

Rənglə duyuram
yanaqlarındakı sözü,
qızarmış...

## KÖÇƏN ADAM

Bu köhnə ömrünün qara günündən,
Sən ağa bürünüb təzə köçürsən,
Hamı əli üstə ötürür səni,
Sən əldən düşürsən, gözə köçürsən.

Bir ömrü sonadək biçib gəlirsən,
Qurumuş bəxtini içib gəlirsən,
Sən də mənim kimi köçüb gəlirsən,
Sən də indən belə sözə köçürsən.

Qabla günlərini, yığış, ta bəsdi,
Boyun qaçırmağın daha əbəsdi,
Yolamı salırlar, sizdə nə səsdi,
Səni qarşılayım, bizə köçürsən.

Axır nəfəsinlə üfürüb şamı,
Girirsən zülmətə bu yaz axşamı,
Sabah izlərini tapacaq hamı,
Sən qoyub gəldiyin izə köçürsən.

## DİZİM

Sənin də yaddaşın var, bildiyini bilirəm,
diz yaddaşın...
Yadına sal,
neçə yol qatlandığını,
nə qədər yük daşıdığını,
nə boyda ağırlığa dözdüyünü,
gecələr yorğunluqdan büküldüyünü...

Bircə dəfə mən istədim
Adam kimi diz çökməyini...
Çökmədin, sınmadın,
qırılmadın, qatlanmadın...
Qatlandın hər şeyə,
hər şeyə rəğmən...

## GÖZÜM

Bir az açıq, bir az qoçaq,
Bir az qara, bir azca ağ...

Bir az qəmli, bir az nəmli...
Bir az sənli, bir az mənli.

Hərdən küskün, hərdən üzgün,
Qəlbimin içindəkilərə güzgü...

Bir az dolğun, bir az dalğın,
Yaşla həmyaş, bir az da çılğın...

Gilas kimi, gilə-gilə.
Gilələri bir az gülən.

Kirpikləri çəpər-çəpər,
Atam çəpərlərdən öpərdi.

Gözlər məni,
Dərd çəkəndə gizlər məni...

Quyu kimi – bir az sərin.
Bir az sulu, bir az dərin.

Həm yaxını, həm uzağı,
Həm böyüyü, həm uşağı
görən gözüm.

İstəyinə varan gözüm,
nirvana[1] gözüm...

Bir az büllur, bir az şüşə.
Qırılar
gözümdən düşən...

[1] Buddizmdə hər cür istəklərdən, duyğulardan ayrılıb ən yüksək ruh halına varma

## BELİM

Nə qədər incəldin,
nə qədər nazildin,
nə qədər sevildin,
bir əlin hərarətiylə…

Üzülmədin, nazilsən də
haqq misalı...

İndi məni üzürsən
bir əlin həsrətiylə...

## ƏLİM

Yaxşı yadımdadı,
anamın döşlərindən yapışdın,
dünyadan iki əlli yapışanda
ilk dəfə...
Sonra yeritdin məni divarları tuta-tuta...
Bir gün də qələm tutdun,
sənin sarıldığın ilk əşya oldu qələm…

Doqquz yaşımda yazdırdın mənə ilk
şeirimi,
Sən toxunan dəftərim qırx ildir durur,
hələ də.

Daha sonra
ərsəyə çatdırdın məni,
sonra da çörəyə...
Bir gün də
əlimdə-ovcumda qalmayan
bir sevginin ətəyindən yapışdın...
Məni əli boş,
qucağı boş qoyan sevginin,
Əlim!

Biz birlikdə yol gəldik burayacan,
əl-ələ, qol-qola.
İndi hər şey Onun əlindədir daha...

## PORTRET ŞEİR

İlməsi qopdu buludun,
Yağışın belində gəldi.
Yer çəkirdi udum-udum,
Otların telində gəldi.

Yox imiş vaxtı-vədəsi,
Köç edib bulud gedəsi,
Göylərin bizə hədəsi,
Şimşəyin dilində gəldi...

Titrədi çayın ürəyi,
Uçurtdu daşı-dirəyi,
Saranın nazik örpəyi,
Sellərin əlində gəldi...

## KİM YATMIŞ, KİM OYAQ?

*Əsəd Cahangirə deyilən şeir*

İnsan, yaranıb bir gün o –
bacarıqlı olub.
Yığıb zamanı, yığıcı olub,
ovçu olub, balıqçı olub,
“homo sapiens” olub.
Ox və kamanı kəşf edib mezolitdə,
ən müasiri isə atmağı əlahiddə-əlahiddə...
kim yatmış, kim oyaq,
yatır hamı...

İki daş arasında qalmışdı
İkiçayarasındakı türkmən.
Bomba-bomba atanda Amerika...

Güvənc yerində dəfn olunur son ümidlər
Qəzzada bu gün...

Dədəli üzündən gələn
güllə səsləri üzümə dəymişdi
23 avqust Füzulisində...
Lap burnumun ucu göynədi
“Əbişin burnu” üçün...
İndi o burun da yoxdur daha...

Kərkükə bomba düşəndə
köksüm yanmışdı.

Eramızdan əvvəl olub Hammurapi,
düz ikinci minillikdə oyanmışdı –
qanun düzdü maddə-maddə,
qara bazalt daş üstündən oyandı...
Ətəyinə daş yığanlar apardılar
dağıdıcı-dağıdıcı...

Minillərdir yol gəlir zaman,
Kim yatmış, kim oyaq.

Birdən yaranıb bütün ikilər,
hind rəqəmlərinə
ərəb rəqəmləri demişik.
Çox şeylər var dolaşıq...

Gedirik,
Yol uzanır ayaq-ayaq...
Kim yatmış, kim oyaq?
Yol uzanır ağac-ağac,
ağaclar yolboyu uzanır,
yolu kölgədə qoyur.

Kim yatmış, kim oyaq,
şeiri sevənlər oyaq,
gecəni sevənlər oyaq.
Günəşin üzünə baxa bilmirəm,
gecəni sevdiyimdən,
kölgəmi yaşadan günəşin...

***

Məni təkliyin əlindən alıb əzizləyən Adam...
Oxuyub öz kitabını təzədən üzləyən Adam.

Hər dərdi çevrilib saya, baxır yerə, baxır göyə,
Çəkdiyini görməyim deyə, gözünü gizləyən
Adam!

Yola salıb qəmlərini, çırmalayıb qollarını,
Ömrün kirli yollarını silib təmizləyən Adam.

Tamamlayıb düz əllini, gəl on yaş da üzərinə,
Sevginin ən gözəlini, tək məndən gözləyən
Adam.

Gözündən ləl, inci düşüb, taleyindən incik düşüb,
Əlindən bir gənclik düşüb, gəncliyini özləyən
Adam.

Sevgini gözündən asıb, yolumu gözüylə kəsib,
Yəqindir ki, budur nəsib, taleyi izləyən Adam!

***

Dərdim səni, ey tazə nübarım, yenə dərdim…
Gördüm səni həm sinədə gül, həm sinə dərdim.

Göz yaşlarımı zənn eləyirdim qurudar eşq,
Eyvah…
Göz yaşlarımı çay elədi tərsinə dərdim.

Çox çəkməmişəm nazını, dərdim elə çox ki,
Qoymuş səni öz başına, vallah binə dərdim.

Mizrabımı vurdum telinə, nəğməmi çaldım,
Bəlkə eşidib nəğməmi bir gün dinə dərdim…

Can çıxsa belə çıxmayacaq eşq ürəyimdən,
İndi hörüyümlə döyürəm mən sinə, dərdim!...

Dərdsizlik özü, valla, yenə dərddir Həyata,
Şəm nuru olum, qoyma ilahi, sönə dərdim.

# QISA ŞEİRLƏR

1.

Toy çalınır,
Ağaclar yarpaq tökür başına
külək oynadan otların.

2.

Dəli sular gözlərinə sovurdu
sahildəki duz dağını...
Ağladı buzdağı,
ağladı...

3.

Səbrindən asılıb qalar
insanlar,
basabas şəhər avtobuslarında…

4.

İşıqlar sönəndə
Alov gülməyə başladı,
Şam ağlamağa…
İşıqlar yandı,
alov yox oldu, şam kiridi…

5.

Zəlzələ yaratdın
içimdə yıxıldı hər şey...
Səni sağ çıxartdım
uçqunlar altından
hər dəfəsində...

6.

İndi mən
iki dodaq arasında
sıxılan sözəm,
sən –
iki qadın arasındakı adam.

7.

Yardım bağrını göylərin
cərrah dualarımla,
qurtardım səni…

8.

İndi bir qadın
səndən uşaq gözləyir,
mənsə zəng...

9.

Yoxluğunun içində
gizləyəcəm səni,
Bəlkə, taparsan özünü deyə,
gözləyəcəm səni...

10.

Ürəyimin zənginə oyandım,
Gedəcəyin günə quruluymuş
çırpıntılarıyla...

11.

Doğulmayan körpələrə
hamilə
şişmiş ürəklərin sancısını,
kim bilə bilir ki...

12.

Mən səni Allaha tapşırdım,
qiymətini zaman verəcək
girdiyin hər imtahanda...

13.

Çobanyastığı üzündəki gülüşün
“sevir, sevmir” misalı...
Bir "sevir" sözünü
sığdıra bilmədim
Gül üzünə...

14.

Lalə ürəyin xallı,
Qana-qana içdin onsuzluğu…

15.

Naftalin qoxulu düşüncələrin
güvə savaşında,
amma ürəyin güvənli…

16.

Gözlərin sulu,
simmetrik ada,
tənha yaşıllıq baxışlarında,
alagözlüm!

17.

Hər gül
bir tikan libası
geyinməyə məhkum,
bilirəm…

18.

Sən –
gecələrin aydınlığı qədər mübhəm,
gündüzlərin qaranlığı qədər
mürəkkəbsən…

19.

Ürəyin doğmadır,
yuvan yad,
dağılan içində fəryad…

20.

Məhəllədə nə desən var:
ov itləri saxlayan kim,
ağac əkib ümid bağlayan kim,
kiminin toyuğu-cücəsi,
kiminin keçməyən gecəsi...

21.

Boy-buxununa doymadığıma:
"Gözlərini yeyim" – dedim,
Zeytungözlüm!…

22.

Niyə gözündəki sevgi
dilinə düşmədi,
Gözündən düşdü, gecə gözlüm?

23.

Haradasan indi görən,
kimin ürəyindəsən?
Əynini qalın elə, deyirəm,
soyuqdur, üşüyərsən...

24.

Ayağının altı qara qızıllı şəhərində
dilənçiləri artırdı,
ağ qızıl yığanları
mis pul kimi qızarırdı tarlalarında
bu məmləkətin,
bir zamanlar…

25.

Bir dəli şeytan deyir,
bəlkə, keçdiyin zamanı
geriyə doğru dərk edəsən…
Çıxasan qaldığın yerdən,
bütün yaşadıqlarını
ikiayaqlı tərk edəsən,
İstanbul!

26.

Həbs olunmuş bir sevgi var
dördkameralı qəlbimdə.
Hamısında o, yatır…

27.

Bir az sevgi yollayım,
Bircə gilə etibar.
Səndən heç nə qalmayıb,
Qalanı da gəl apar...

28.

Qələmlərin ömrünü
yeyir hər gün hərflər.
Mən səni axtarıram,
Gözlərimdə görüblər...

29.

Qəlb atışım
sənə hədəflənmiş,
ürəyim döyünür…
Nəbzim atır özünü
vücudumun hər yerindən,
İntihar var gecədə...

30.

Yenə durmuşam arasında
keçmişlə gələcəyin…
Yaz gəldi,
qarışqaların sayı
ölçü vahididir sənsizliyin…

31.

Öp məni üzümün bitdiyi yerdən,
qulağımda sırğa olsun
soyuq dodaqların

32.

Gecə…
Dəniz yırğalanır,
Ay yatıb dizi üstündə…

33.

Üç dilimə böldüm ömrümü –
birini savaş yedi,
birini həyatla barış,
digərini də İstanbul...

# MÜNDƏRİCAT

İstanbul saatı ilə....................................................................4
Səni ilk gördüyüm yer....................................................5
Azadlıq..................................................................................6
Salam, əsgər!........................................................................8
Şuşa .....................................................................................12
Xarı bülbül...........................................................................13
"Qanım çəkdi səni "Şeyx Zahid işığında" ...............14
Adını sən qoy.......................................................................16
Mənim bir sualım var.......................................................17
Anamın hekayəsi.................................................................19
Bir cümə günü.....................................................................21
Üç nöqtə................................................................................23
Dialoq....................................................................................24
Rəssam..................................................................................25
Qoxula məni........................................................................29
Kimlik....................................................................................30
İki şəhər.................................................................................31
"Dilinin altında gizlənir insan"........................................34
Nənəmin nağılları..............................................................36
Mən, Sən, O.........................................................................38
Möcüzə həyatlar.................................................................39
Adam olmadı bizdən.........................................................41
Qərbi Qaradəniz səfəri......................................................42

Ayrılıq.........................................................................50
Yarı dərd, yarı adam.................................................51
“İşığın yoxluğudur
hər görünməz qaranlıq”..............................................52
Xiromantiya...............................................................54
Ayadamlar..................................................................55
Gün, küçə və adam.....................................................56
Əsgərə məktub............................................................58
“Bir snayper gülləsi”...................................................60
Qarabağ......................................................................61
Şəhidim.......................................................................63
İraq şəhərdən..............................................................66
O fevral.......................................................................67
Monofobiya.................................................................70
Sunami........................................................................71
Gecə kirpikli qadın.....................................................73
O kənd mənim kəndimdi...........................................74
“Səni çox axtarmışam
gördüyüm hər addımda”.............................................76
Yeni şeirlərim var sənə...............................................77
“Xatirəkitabı”na..........................................................78
Elə şirin susmusan......................................................81
Ən çox ona yandım.....................................................82
Banuçiçək...................................................................84
Mənim saatımla başlar günümüz...............................86
Atam...........................................................................88
“Biz sovet uşaqlarıyıq”...............................................91

Anama yazdığım şeir....................................................94
Yağmasın yağış............................................................95
Ürəyim səni yığır........................................................96

PANDEMİYA ŞEİRLƏRİ.........................................97
#Evde qal ....................................................................98
Karantində qal indi....................................................101
Koronaviruslu bakım.................................................102

Gəlin köçən qız..........................................................103
Yazılmayan şeir..........................................................105
Qocalıb atam..............................................................107
Nənəmvəbabam..........................................................108
Qurbanam...................................................................112
Çöl adamının qeydləri................................................113
Dayanıram mən..........................................................116
Plazma........................................................................117
Sualsan – tapa bilmədiyim.........................................119
Hadisə.........................................................................121
Körpəm.......................................................................123
Lirik şeir.....................................................................125
Gözlərim film çəkir....................................................126
"Deyirəm ki, səni necə çağırım..."..........................127
Bu yaz da cücərmədi...................................................128
"Bəxt gölündə qayıq ola".........................................129
Gül kimi güllə............................................................130
Ölüm məndən əlin üzür..............................................131

Yox olmuş evimiz....................................................132
Atv......................................................................133
Yer üzündən keçirdin...............................................136
Şuşada vurulan vertolyot.........................................137
Bu gecənin qaşı çıxır................................................139
Rənglə duyuram........................................................140
Köçən adam...............................................................142
Dizim.........................................................................143
Gözüm.......................................................................144
Belim.........................................................................146
Əlim...........................................................................147
Portret şeir.................................................................148
Kim yatmış, kim oyaq?.............................................149
"Məni təkliyin əlindən alıb
əzizləyən adam"........................................................152
"Dərdim səni, ey tazə nübarım, yenə
dərdim…"..................................................................153

QISA ŞEİRLƏR.........................................................154

# QEYD ÜÇÜN